www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 dekabr 2015-ci il Cümə axşamı № 275 (6303) Qiymәti 40 qәpik

**Xəbər**

**Azərbaycan Ordusu düşmənə tankla zərbə endirdi**

yazısı səh.13-də

**Gündəm**

**"Həbs olunan şəxslərin hamısı Eldar Mahmudovun adını çəkirlər"**



**Eynulla Fətullayev:** "Leyla Yunus dəfələrlə prezidentə müraciət edib, o, bəzi addımlarına görə peşmançılıq çəkirdi"; "Milli Təhlükəsizlik Nazirliyinin adı dəyişməlidir..."

yazısı səh.6-da

**Dənizdə itən neftçilərin axtarışları davam edir**

yazısı səh.2-də

**Ceyranbatan su anbarının işçisi göldə boğulub**

yazısı səh.3-də

**Türkiyəli ekspert Həsən Oktaydan Xəzərdəki qəzaya dair "təxribat" iddiası**

yazısı səh.12-də

**Qəzetlər "Qasid"dən borcunu ala bilmir**

yazısı səh.3-də

**İcazəsiz aksiyalarla bağlı cəzalar sərtləşdirildi - cərimələr artırıldı**

yazısı səh.4-də

**Rauf Mirqədirovun məhkəmə istintaqı yekunlaşır**

yazısı səh.3-də

**Fuad Qəhrəmanlını Eldar Həsənova, yoxsa Eldar Mahmudova görə tutdular - heyrətamiz iddialar**

yazısı səh.4-də

**Pənah Hüseyn QMİ-nin ləğvi iddiasını yanlış hesab edir**

yazısı səh.5-də

**"Ölən və xəsarət alan neftçilərə daha çox kompensasiya verilməlidir"**

yazısı səh.10-da

**Apteklərdə dərmanlar bahalaşıb, "vahid qiymət" də yoxdur...**

yazısı səh.15-də

# Ölkə odla su arasında

# AZƏRBAYCAN MƏNGƏNƏDƏ - DÜŞMƏNİMİZ KİMLƏRDİR?

"17 oktyabr inqilabı" adı alan proseslərdən sonra ölkə sanki bir atəş çənbərinə düşüb: internetin kəsilməsi, Nardaran hadisələri, "Günəşli" platformasında yanğın və cəbhədə müharibə; hər şey bəlkə də may ayında yanan binadan başlamışdı...




yazısı səh.5-də

## Kremlin danışan dili Azərbaycanı və Türkiyəni hədələdi - "Hamı üçün pis olacaq"

Rusiya rəhbərliyi açıq edə bilmədiyi təhdidləri öz ruporu vasitəsi ilə çatdırmağa başlayıb; **Duqin:** "Bizi savaşa məcbur etsələr, İstanbulun adı təzədən dəyişə bilər"; "Qarabağda müharibə hər kəs üçün pis olacaq..."

yazısı səh.8-də



**Leyla Yunus azadlığa buraxıldı**

yazısı səh.2-də



*Namiq Abbasov:*

**"Mən MTN-dən getdim, o gəldi, sonra bu qədər hadisələr oldu"**

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

**"Bu vəzifə ona verilib ki, xalqa xidmət etsin, qaçıb xalqdan gizlənməsin"**

yazısı səh.9-da

**10 dekabr 2015**



## Eldar Mahmudovun Londondakı 30 milyon funt-sterlinqlik mənzili

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov 2012-ci ildə Londonun ən nüfuzlu və bahalı rayonunda - Sent-Ceyms məhəlləsində oğlunun adına 8 otaqlı dəbdəbəli mənzil alıb. Virtualaz.org saytı xəbər verir ki, bu barədə haqqin.az saytının Avropa bürosuna Londonun rieltor şirkətlərinin birindən məlumat verilib.**

Məlumatda bildirilir ki, həmin mənzil hazırda Azərbaycanın xüsusi xidmət orqanları sistemində kriminal qruplaşma yaratmaqda ittiham olunan sabiq nazirə nə az, nə çox - düz 30 milyon funt-sterlinqə başa gəlib.

Sent-Ceyms məhəlləsində yaşayış üçün nəzərdə tutulan tikililər çox azdır. Bu rayonda inşaat işləri aparılmır, yeni binalar tikilmir. Ona görə də Sent-Ceymsdə ev və mənzillər çox bahadır. Hətta bütün Böyük Britaniyada ən yüksək sayılır. Burada yaşayış sahələri deyəndə adətən nəhəng qədim ev və malikanələr, bir də bərpa edilərək müasir mənzillərə çevrilən tarixi binalar nəzərdə tutulur.

Sabiq nazirin aldığı mənzilə gəlincə isə o, Eldar Mahmudovun oğlu Anar Mahmudovun adına sənədləşdirilib. Anar Mahmudov hazırda da Londonda yaşayır. Eldar Mahmudov korrupsiya və kriminal yolu ilə əldə etdiyi kapitalın böyük hissəsini Qərbdə məhz oğlunun şirkəti vasitəsilə leqallaşdırıb.

## "AST Telman" özünü müflis elan edir



**"AST" şirkətlər qrupunun sahibi Telman İsmayılov özünün iflas ("bankrot") elan olunması üçün Moskva Arbitraj Məhkəməsinə iddia təqdim edib. Bu barədə "Kommersant" qəzeti yazıb. Qəzetin yazdığına görə, T.İsmayılov iddianı noyabr ayının 19-da təqdim edib. Amma məhkəmə baxışı dekabrın 26-dək təxirə salıb.**

Oktyabrın 1-də Arbitraj Məhkəməsinə daxil olan daha bir iddiada deyilirdi ki, 2012-ci ilin sentyabrından 2014-cü ilin fevralına kimi bank "Ruslayın" MMC və Hollandiyanın "Tropicano Finance B.V." şirkətlərinə üç dəfə ümumi məbləği 230 milyon dollar olan kredit ayırıb. Hər iki şirkət AST ilə əlaqəlidir və pulu alan Telman İsmayılov kreditin müəyyən olunmuş müddətdə qaytarılacağı barədə şəxsən təminat verib. İddiaya əsasən nə faizlər, nə də əsas borc ödənilməyib. Nəticədə T.İsmayılovun bu ilin 1 oktyabrına yığılan borcu 286,4 milyon dollar təşkil edib. "Moskva bankı" T. İsmayılovun bu müddətdə maliyyə öhdəliklərini yerinə yetirmədiyinə görə, onun ödəmək iqtidarında olmadığını bildirib. Bununla əlaqədar bankın hüquqşunasları Arbitraj Məhkəməsindən vətəndaşın borclarının restrukturizasiyası prosedurunu aparmağı xahiş ediblər.

Telman İsmayılov 2008-ci ilə qədər Moskvanın ən nüfuzlu biznesmenlərindən biri idi. Ona məxsus olan "AST" şirkətlər qrupu "Çerkizov" bazarına, "Boentorq" binasına, "Praqa" restoranına və Moskva ətrafındakı ərazidə 3 min hektar torpaq sahəsinə malik idi. Lakin 2008-ci ildə Çerkizov bazarındakı konteynerlərdə 2 milyard dəyəri olan saxta mallar aşkar olunduqdan sonra bazar söküldü. Bu hadisədən sonra İsmayılov Türkiyəyə köçməyə məcbur oldu.

Bu arada xəbər yayılıb ki, Telman İsmayılov Rusiya Azərbaycanlıları Milli - Mədəni Muxtariyyatını ("Azerros") Moskvada yerləşən ofisindən çıxarıb.

Lent. az-ın məlumatına görə, Moskvanın Krasnaya Presnya küçəsi, 24 ünvanında, Telman İsmayılova məxsus biznes mərkəzində yerləşən "Azerros"a heç bir xəbərdarlıq edilməyib. Qurum bir neçə saat ərzində ofisindən çıxarılıb. İsmayılovun adamları tez-tələsik qovulmanın səbəbləri barədə "Azerros" rəhbərliyinə heç bir izahat verməyiblər.

**Məlumata görə, "Azerros" mərkəzdən bir qədər aralıda, Lenin prospekti, ev 15 ünvanında özünə kiçik qərargah tapıb.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Leyla Yunus azadlığa buraxıldı

### Apelyasiya Məhkəməsi onun və Arif Yunusun barəsində şərti cəza qərarı verdi



**Bakı Apelyasiya Məhkəməsində Sülh və Demokratiya İnstitutunun (SDİ) həbsdə olan direktoru Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası davam etdirilib.**

APA-nın məlumatına görə qərara əsasən, məhkəmənin Leyla və Arif Yunusların barəsində bəraət hökmü çıxarılmasına əsas görmədiyi elan olunub. Lakin qeyd olunub ki, onlar barəsində hökm dəyişdirilməlidir. Leyla Yunusun ittiham olunduğu Cinayət Məcəlləsinin 320-ci maddəsi ilə bağlı müddət keçdiyindən həmin maddə üzrə təyin olunan cəzalar hökmdən xaric olunub.

Leyla Yunusun barəsində təyin olunan 8 il 6 ay müddətində azadlıqdan məhrum etmə cəzası 5 il sınaq müddəti təyin olunmaqla şərti hesab olunub. Onun barəsində seçilmiş həbs-qətimkan tədbiri ləğv edilib. Leyla Yunus məhkəmə zalından azadlığa buraxılıb.

Eyni zamanda Arif Yunus barəsində 7 il müddətində azadlıqdan məhrum etmə cəzası 5 il sınaq müddəti təyin edilməklə şərti hesab olunub.

Məhkəmə Leyla və Arif Yunusların övladı Dinara Yunusa məxsus evin müsadirə olunması barədə qərarı da ləğv edib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust tarixli hökmü ilə Leyla Yunus 8 il 6 ay, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilmişdilər. Hökmdə həmçinin onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi öz əksini tapıb.

Apellyasiya Məhkəməsinin noyabrın 12-də keçirilən prosesində həbs-qətimkan tədbirini dəyişdirib, ondan başqa yerə getməməklə bağlı iltizam alıb. Bundan sonra A.Yunus məhkəmə zalından azadlığa buraxılmışdı.

Məhkəmədən azadlığa buraxılan Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus əsa ilə yeriyib, çox qısa şəkildə açıqlama verib: **"Özümü düşərgə tozu kimi hiss edirəm".**

O, məhkəmədən birbaşa anasının qəbrini ziyarət etməyə gedib.

Bu haqda "Azadlıq" radiosuna onun dostu Azad İsazadə məlumat verib. Onun sözlərinə görə, Leyla Yunus indi çox zəifdir, ona görə də hələlik heç kimlə görüşmək istəmir. **"Leyla xanım bir qədər dincəldikdən sonra müsahibə verməyi düşünür",** deyə A.İsazadə bildirib.

"Leyla Yunusun humanitar əsaslarla azadlığa buraxılmasını alqışlayırıq". APA-nın xəbərinə görə, bu barədə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Ann Brassör "twitter" səhifəsində yazıb.

ATƏT və Avropa Parlamenti də qərardan məmnunluqlarını ifadə ediblər.



## Asim Mollazadə İsrail səfiri ilə görüşüb

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stavla görüşüb. DİP mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, görüşdə Azərbaycan-İsrail münasibətləri, xaricdəki Azərbaycan və İsrail diasporlarının əməkdaşlığı, Yaxın Şərqdəki vəziyyət, Suriya ətrafında cərəyan edən hadisələr, Cənubi Qafqaz regionundakı konfliktlər müzakirə olunub. A.Mollazadə cənab Stava DİP-in fəaliyyəti barədə ətraflı məlumat verib.**

❑ Vüqar MURAD

## KXCP və AXP birləşmə barədə danışıqlara başladı

**KXCP mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, bu gün KXCP qərargahında KXCP sədri Mirmahmud Mirəlioğlu və AXP sədri Pənah Hüseyn arasında təkbətək görüş olub. Görüşdən sonra partiya sədrlərinin rəhbərlik etdikləri partiyaların gələcəkdə təşkilati inteqrasiya da daxil olmaqla, sıx əməkdaşlıq etməsi üzrə danışıqlar apardığı və bu məsələlərin həmin təşkilatların kollektiv səlahiyyətli orqanlarının müzakirəsinə çıxarmaq barədə razılığa gəldikləri bildirilib.**

Partiya sədrlərinin fikrincə, müxalifətə olan siyasi partiyaların birləşməsi prosesi indiki situasiyada aktual problemlərdin biri kimi önə çıxarılmalıdır.

❑ Musavat.com



## Neftçilərin axtarışları davam etdirilir

### "BP" şirkətinin öz işçilərini təxliyə etməsi haqda yayılan məlumatlar həqiqəti əks etdirmir"

**"Havanın pis olmasına baxmayaq FHN-in helikopterləri və SOCAR-ın AZAL-dan sifariş etdiyi helikopterlər axtarışı davam etdirib. Sualatı axtarışlar müvəqqəti dayandırılıb". Musavat.com xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azneft" İB baş mühəndisi Balamirzə Ağarəhimov deyib. O, sualtı axtarışların dayandırlmasının səbəbini isə belə izah edib: "Hazırda küləyin sürəti 18-23 metrdir. Belə hava şəraitində sualtı axtarış təhlükəlidir".**

B.Ağarəhimov onu da vurğulayıb ki, neft daşlarında ehtiyat gəmilər saxlanılıb və hər hansısa məlumat əldə olunarsa, onlar lazımi əraizyə yaxınlaşacaq. Hazırda 5 gəmi isə yanğının sömdürülüməsi ilə məşğuldur".

B.Ağarəhimov onu da əlavə edib ki, yanğının qarşısının alınması məqsədilə platformada hasilatın tamamilə dayandırılması planlaşdırılır: "Hasilatı tamam kəsmək istəyirik ki, yanğının qarşısı alınsın. Yanğının gedişini istilikdən yaranan buluda görə tam izləmək mümkün deyil. Ona görə dəqiq bilmək olmur ki, azalıb ya yox. Çalışırıq ki, artmasın".

**"BP" şirkətinin öz işçilərini təxliyə etməsi haqda yayılan məlumatlar həqiqəti əks etdirmir"** - deyə, Balamirzə Ağarəhimov deyib.

Şirkət rəsmisi vurğulayıb ki, işçilərin özüldən təxliyə olunması platformada problem olan zaman baş verir: "İşdə olan zaman isə onlar təhülkəsiz yerlərdə yerləşdirilirlər. Neftçilər külək olan zaman işə getməyiblər. Bu məlumatlar yanlışdır. Qeyd edim ki, onlar işdə olan vaxt güclü külək olub. "Günəşli" yatağında baş verən yanğının söndürülməsi ilə bağlı xarici mütəxəssislərlə birgə iş planı hazırlanır".

❑ Əli RAİS



## Nardaranda polis bölməsi tikilir

**Nardaranda daha bir nəfər hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılıb. Bu barədə Trend-ə Nardaran sakinləri məlumat verib. Məlumatda bildirilir ki, Nardarandakı Rəhimə xanım Ziyarətgahının axundu Hacı Nuhbala Rəhimov da polis tərəfindən saxlanılıb. Bildirilir ki, N.Rəhimov ziyarətgahda saxlanılaraq Sabunçu rayon Polis İdarəsinə aparılıb və Sabunçu rayon Məhkəməsinin qərarı ilə barəsində 12 sutkalıq həbs qətimkan tədbiri seçilib.**

Sakinlər bildiriblər ki, axund da Nardaran hadisələrinə görə saxlanılıb.

Daha bir Nardaran sakini də tutulub. APA-nın məlumatına görə, saxlanılan şəxs qəsəbə sakini Nadir Qədirovdur.

Polis əməkdaşları dünən onun yaşadığı evdə axtarış aparıb. Axtarış nəticəsində evdən bir ədəd əl qumbarası aşkar edilərək götürülüb.

Ötən gün Nardaran sakini Məşədi Natiq Kərimov da saxlanılıb və sonra sərbəst buraxılıb.

Bu barədə APA-ya verilən N. Kərimov özü məlumat verib. O qeyd edib ki, 6 saatdan çox Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər İdarəsində ifadə verib. İfadəsi Nardaranda baş verən hadisələrlə bağlı olub. İstintaq sirri olduğu üçün o, ifadəsinin detallarını açıqlamayıb.

Nardaran dekabrın 1-dən Daxili Qoşunların və polisin nəzarətindədir. Kəndə aparan bütün yollarda polis postları qurulub. Nardaran sakinlərindən başqa digər rayon və şəhər qeydiyyatında olanlar kəndə buraxılmır.

Hazırda kəndin mərkəzi sayılan İmam Hüseyn meydanında Daxili Qoşunların qərargahı var. Kəndin hər küçəsi, məhəlləsi polis nəzarətindədir. Uzun illər sonra kənddə abadlıq və quruculuq işlərinə başlanılıb. Musavat.com xəbər verir ki, hazırda kəndin mərkəzində park salınması üçün işlər görülür. Kəndin İmam Hüseyn meydanının yaxınlığında polis bölməsinin tikintisinə başlanılıb.

Kənddə elektrik enerjisi, təbii qaz və suyun verilməsi üçün müvafiq qurumlar çalışır. Nardaranda evlərə işıq verilməsi prosesi davam etdirilir.

Musavat.com xəbər verir ki, artıq dünəndən kənddə 1000-dən çox evdə sayğac quraşdırılıb. Sayğac quraşdırılan mənzillərə elektrik enerjisinin verilişi bərpa edilib. Elektrik enerjisinin verilməsi ilə bağlı 1500-dən çox ailə kənddə yaradılan qərargaha müraciət edib. Qərargahda "Azərişıq"ın şərtləri ilə razılaşan abonentlər arasında müqavilə imzalanır. Yeni quraşdırılan sayğaclar SMS Smart sayğaclarıdır.

❑ İlkin MURADOV



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Gündəm



**"Qasid" mətbuat yayımı firması ilə qəzetlər arasındakı borc məsələsi hələ də həllini tapmayıb. Yayım rəhbərliyi firmanın müflis olması səbəbi ilə artıq bir ildən çoxdur "Yeni Müsavat" və "Azadlıq" qəzetlərinin yayımını dayandırıb. Lakin hələ də bu qəzetlərə olan borc ödənilməyib. Bu isə qəzetlərin maddi problemlərinin daha da dərinləşməsinə gətirib çıxarır.**

# Qəzetlər "Qasid"dən borcunu ala bilmir

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərif** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "Qasid" onlara olan 70 min manat borcdan bir manat da qaytarılmayıb: "Dəfələrlə müraciətlər olunub, lakin heç bir manat da ödəməyiblər. Ümumiyyətlə "Qasid" yayım firması bizə qarşı saymazlıq edir, bəzi hallarda heç telefonları qaldırmırlar. Həmin məbləğ olduğu kimi yerindədir. Məhkəmə çəkişmələri ən azı aylar, illər tələb edir. Ancaq bu müəssisə müflis olubsa, hökumət mətbuatın durumunu fikirləşirsə, firmanı iflas olunmuş kimi Əmlak Komitəsinə verib özəlləşdirməli və borcları qaytarmalıdır. Çünki qanunvericilikdə bu nəzərdə tutulub ki, kim onun texnikasına, binasına sahib olursa, onun borclarına da sahib olur. Ya da özləri bu firmaya təzyiq göstərməlidirlər ki, pulları qaytarsın. "Qasid" firmasının rəhbəri Mirkazım Kazımovun bir maşınının pulu bütün borcları qaytarmağa yetər. Bu borclar bizim fəaliyyətimizə də mənfi təsir edir".



**Ələsgər Süleymanov:** "Odla su arasında qalmışıq..."



**Sucəddin Şərif:** "Firma rəhbərinin bir maşınının pulu bütün borcları qaytarmağa yetər"

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** da "Qasid"lə qəzet arasında borc probleminin hələ də həllini tapmadığını dedi: "Bu, uzun zamandan bəri yığılıb qalan borcdur və bu günədək məsələ həllini tapmayıb. Biz güman edirdik ki, "Qasid" öz fəaliyyətini davam etdirəcək və vəziyyətdən çıxacaq. Bizə bu cür demişdilər ki, guya işləyəcək və müəyyən kreditlər götürəcək, o kreditlərin hesabına borcları bağlayacaq. Əfsuslar olsun ki, hər hansı irəliləyiş yoxdur. Hər dəfə soruşanda deyirlər ki, yaxşı olacaq. Ancaq necə həll olunacağının mexanizmini özləri də bilmirlər. Qəzetlərin də bu dəqiqə vəziyyəti çox kritikdir, özlərinin borcları var. Azərbaycan nəşriyyatına və digər ödəmələri vaxtı-vaxtında edə bilmirlər və ona görə də müəyyən borclar yığılır. Güman edirəm ki, bu məsələyə hökumət nümayəndələri qarışmalıdırlar, problem müzakirə olunub, çıxış yolu tapılmalıdır. Yoxsa bu vəziyyətdə proses qəzetləri batırmağa doğru gedir".

**Ə.Süleymanov problemi həll etmək üçün hüquqi yollara baş vuracaqlarını da istisna etmədi:** "Məhkəməyə müraciət etmək barədə təbii ki, düşünürük. Ancaq bir məsələ var ki, "Qasid" borcunun olmasından imtina etmir. "Qasid" deyir ki, borc var və hələ ki, onu ödəyə bilmirik, ödəyəcəyik. Ancaq nə vaxt ödəyəcək, necə ödəyəcək-bu haqda dəqiq heç nə demir. Bu baxımdan məhkəməyə müraciət etməmişik. Bizim üçün də məsələ aydınlaşmır. Odla suyun arasında qalmışıq. Məhkəməyə versək, "Qasid" deyəcək ki, borcum var və ödəyəcəyəm. Məhkəmə də qərar çıxaracaq ki, borcun var və onu ödə. Yenə də heç nə dəyişmir. İndi gözləyirik ki, bu məsələyə nə müdaxilə olunacaq, çıxış yolu nə olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Rauf Mirqədirovun məhkəmə istintaqı yekunlaşır

## Jurnalistin məhkəməsində şahid ifadələri başa çatdı; vəkili: "Onun əleyhinə ümumiyyətlə, ifadə yoxdur..."

**Dekabrın 9-da Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun məhkəməsi keçirildi. Saat 10:30-da Əlisultan Osmanovun sədrliyi ilə başlayan proses əvvəlkilərə nisbətən tez yekunlaşdı.**



Rauf Mirqədirov

Məhkəmə qapalı olduğundan keçən bir saat ərzində iclasdan xəbər tutmaq mümkün olmadı. Jurnalistə dəstək olmaq üçün məhkəmə binasının qarşısına demək olar ki, heç kim gəlməmişdi - yalnız ailə üzvlərindən və iki media orqanının nümayəndəsindən başqa...

Saat 11:30-da yekunlaşan prosesdən sonra **Mirqədirovun vəkili Fuad Ağayev** mətbuata açıqlama verdi. O, məhkəmənin yekunlaşmağa doğru getdiyini bildirdi: "Məhkəmə bazar ertəsi saat 10:30-da davam edəcək. Prosesdə bəzi vəsatətlərim oldu. Yazılı vəsatətim olmadı. Düşünürəm ki, yaxın müddətdə məhkəməni yekunlaşdırmaq olar. Ola bilər ki, gələn həftə məhkəmə istintaqı yekunlaşsın. Çünki şahidlərin dindirilməsi artıq başa çatıb. Mirqədirovun əleyhinə ümumiyyətlə, ifadə yoxdur. Bəzi sübutlarımız var. Qeyd edim ki, ittiham tərəfinin Rauf Mirqədirova qarşı elə bir sübutu yoxdur. Hətta Raufun təqsirini qismən də, dolayısı yolla da olsa, təsbit edəcək bir sübut belə mövcud deyil. Sübutlarımızı məhkəməyə təqdim etmək hüquqlarımız var. Bunları təqdim edəcəyik. Məhkəmədən gözləntimi deyə bilmərəm. Çünki Azərbaycan şəraitində hər hansı bir proqnoz vermək çox çətindir".

Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. Həmin gün təyyarə ilə Bakıya göndərilən jurnalisti MTN əməkdaşları saxlayıblar. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə həbs-qətimkan tədbiri seçilib. İl yarım jurnalist həbs müddətinin uzadılması yolu ilə həbsdə saxlanılıb. Jurnalistin ittiham olunduğu ağır maddə üzrə onu ömürlük və ya 15 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Yerli və beynəlxalq hüquq təşkilatları onu vicdan məhbusu kimi tanıyırlar. Müdafiə tərəfi R.Mirqədirovun Rusiyanın Gürcüstan və Ukraynada apardığı əməliyyatları yazılarında sərt tənqid etdiyinə görə həbs edildiyini iddia edirlər.

❑ **Cavanşir ABBASLI**

# Hacı Məmmədovun vəkilləri ilə görüşü yubanır

## Məşhur arestantın 10 il MTN-də saxlanılması hakimiyyətdaxili qovğaya səbəb olub

**10 ildir MTN-in İstintaq Təcridxanasında saxlanılan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili, ömürlük məhkum Hacı Məmmədovun işi üzrə istintaqın yenilənəcəyi haqda məlumat vermişdik. "Yeni Müsavat"a daxil olan son məlumata görə artıq H.Məmmədova vəkil tutulub. Vəkil məşhur arestantla görüşmək üçün MTN-ə rəsmi olaraq müraciət edib. 1 həftə əvvəl quruma təqdim olunan müraciətə hələlik baxılmayıb.**



Hacı Məmmədov

Bu səbəbdən vəkilinin H.Məmmədovla görüşü gecikir. Yada salaq ki, Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra Hacı Məmmədov cinayət işinin yenidən araşdırılmasını tələb edib. O, MTN-də saxlanıldığı son 10 il ərazində təzyiq altında olduğunu, məhkəməsi zamanı DİN Cinayət Axtarış İdarəsinin rəisi, general Zakir Nəsirova qarşı yalan ifadələr verməyə məcbur edildiyi məsajını yollayıb. Məşhur arestantın müraciətindən belə nəticə hasil olur ki, o, cinayət işinin yenilənməsini, yenidən məhkəmə keçirilməsini tələb etməklə onun vasitəsi ilə, ifadələri əsasında məhkum edilmiş Zakir Nəsirov və digərlərinin barəsində doğru-dürüst ifadə vermək imkanı qazansın.

**Xalqxeber.az saytı yazır ki, Hacı Məmmədovun məhkəmə hökmündən sonra MTN-in təcridxanasında saxlanılması məsələsi yenidən gündəmə gəlib və hakimiyyətdə qovğa yaradıb.** Sayta daxil olan məlumatda deyilir ki, iqtidarda "MTN işi"nin dərindən araşdırılmasının tərəfdarı olan qruplaşma bu məsələyə də aydınlıq gətirilməsi üçün səy göstərir. Məlumat üçün deyək ki, Hacı Məmmədov məhkəmə hökmündən sonra Qobustanda ömürlük azadlıqdan məhrum edilən məhbuslar üçün nəzərdə tutulan həbsxanaya göndərilməli olduğu halda MTN-in təcridxanasında saxlanılıb və bugünə qədər də oradadır. Mətbuat dəfələrlə Hacı Məmmədovun hansı səbəbdən Qobustandakı həbsxanaya köçürülməməsi məsələsini qaldırsa da, MTN hər dəfə "Hacı Məmmədov özü istəmir" şəklində cavab verib. Lakin mülahizələrə görə, Hacı Məmmədovun MTN-in təcridxanasında saxlanılması onun hansı sirləri açıqlaya biləcəyi təhlükəsindən irəli gəlib. Özü də bu sirlərin açılması MTN-in keçmiş rəhbərliyinin, eyni zamanda hakimiyyətdəki bəzi qrupların maraqlarına ziddir. Elə bu səbəbdəndir ki, "MTN işi"nin dərindən araşdırılmasında maraqlı olan qruplaşma Hacı Məmmədovun Qobustana köçürülməsinə, həmçinin bildiklərini danışmasına çalışır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ceyranbatan su anbarının işçisi göldə boğulub

## Rahib Məmmədovun yaxınları hadisənin gizlədilməsindən və meyitin axtarılmamasından şikayətlənir...



**Dekabrın 3-də Ceyranbatan su anbarında çalışan texniki işçi həyatını itirib. Rahib Məmmədov güclü külək nəticəsində suya düşüb və onu xilas etmək mümkün olmayıb. Bu barədə musavat.com-a R.Məmmədovun yaxınları bildiriblər. Onların sözlərinə görə, ayın 3-də güclü külək nəticəsində iki işçi su anbarına düşüb. İşçilərdən biri xilas olsa da, R.Məmmədov boğularaq həlak olub.**

"Bu günə qədər Rahib Məmmədovun meyiti tapılaraq dəfn edilməyib. Onun boğularaq həlak olması haqqında ailəsinə heç bir məlumat verilməyib. Rahib Məmmədovun evə gəlmədiyini görən həyat yoldaşı özü FHN-in su anbarında olan mühafizə idarəsinə gedərək, Rahib Məmmədovun işdən çıxıb evə gəlmədiyini bildirib. Bundan sonra idarədən ona həyat yoldaşının su anbarına düşərək boğulduğunu və meyidinin hələ də tapa bilmədiklərini deyiblər. Neçə gün hadisəni ailədən gizlədiblər. Artıq bir həftə vaxt keçməsinə baxmayaraq, onun meyiti hələ də tapılmayıb. Biz düşünürük ki, onu heç axtarmırlar. Bu, necə FHN-dir ki, işçisinin meyitini bir həftədir adi su anbarında tapa bilmir? Ailə bununla bağlı dövlət başçısına müraciət etməyə hazırlaşır".

**Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.**

❑ **RÖYA**

# Fuad Qəhrəmanlını Eldar Həsənova, yoxsa Eldar Mahmudova görə tutdular - heyrətamiz iddialar

## Razi Nurullayev: "Əli Kərimli İlham Əliyev iqtidarını qoruyan status yazır..."; "Cəbhəçilərin acı taleyi üzərindən divident qazanmaq yaramazlıqdır"

**Xəbər verildiyi kimi, dekabrın 8-də AXCP sədrinin müavini Fuad Qəhrəmanlı həbs edilib. O, Cinayət Məcəlləsinin 281.1, 283.1, 283.2.1 maddələri ilə ittiham olunur.**

F.Qəhrəmanlını Əli Kərimlinin sağ əli hesab etmək olar. Partiya daxilində Kərimliyə sadiq 2-3 şəxsin adını çəkmək lazım gəlsə, onlardan bəlkə də birincisi odur. Hazırda həbslə əlaqədar ilkin versiyalar Ə.Kərimli və F.Qəhrəmanlının Nardaran hadisələri və "MTN işi" ilə bağlı adlarının keçməsi ilə bağlıdır. Bəzi ekspertlər iddia edir ki, gedən proses sabiq MTN rəhbəri Eldar Mahmudovun müxalifətdəki dayaqlarının sıradan çıxarılmasına start verilməsidir. F.Qəhrəmanlı ona yaxın şəxs kimi təqdim olunur. İddialara görə, AXCP sədrinin müavinini hər zaman real həbs təhlükəsindən məhz Eldar Mahmudovun himayəsi qoruyub.

Bir başqa ekspertsə "Yeni Müsavat"a deyib ki, Əli Kərimli AXCP-si əslində Eldar Həsənovun (Montoneqrodakı səfirimiz) gizli patronajlığında fəaliyyət göstərib və məhz onun xətti ilə E. Mahmudovun da himayəsini ala bilib.

Bu gün mövzumuz bu məsələlər deyil, ona görə də bu cür iddiaları dərinləşdirməyəcəyik. Mövzunuz ətrafındakıları bir-bir xərcləyən Əli Kərimlinin son olaya münasibətində ortaya çıxan heyrətamiz başqalaşmadır. Ayrı zaman ağzından od tökülən, iqtidarı təhqirlərə, ağır qınaqlara məruz qoyan Kərimli ən yaxın adamının qandallanmasına bir növ, şairanə münasibət bildirib. Onun F. Qəhrəmanlının həbsi ilə bağlı sosial şəbəkələrdə paylaşdığı iki status o dərəcədə ürkəkdir ki, istər-istəməz, suallar yaradır.

Həmin statuslarda şairanə pafos var, lakin özünün iddia etdiyi kimi, "yeganə müxalifət lideri"nin qələminə uyğun olmayan qorxaqlıq da ortadadır. Açıqca görünür ki, "müəllim" qorxur...

**Vaxtı ilə F.Qəhrəmanlı ilə eyni düşərgədə Kərimlinin müavini olmuş, hazırda AXCP-nin hüquqi varisi adını qazanmağa iddialı olan Razi Nurullayev həbslə bağlı ilkin versiyalarını irəli sürdü:** "Əli Kərimlinin statuslarını oxudum. Doğrusu çox heyfsiləndim. İlk növbədə, Fuad Qəhrəmanlıya azadlıq arzu edirəm. Tezliklə azadlığa, ailəsinə qovuşsun. Onun iki gözəl övladı var. İstənilən halda, əlimizdən bir şey gəlmir. Amma beynəlxalq təşkilatlarla görüşlərdə bu məsələni qaldıracam. Fuad üçün əlimdən gələni edəcəm. Onun statuslarını oxuyurdum. Həbs edildəndən sonra bir daha incələdim. Məndə bir neçə fikir formalaşdı. Əli Kərimli Nardaran hadisələri ilə bağlı münasibət ortaya qoyan zaman demişdi ki, əldə silah dövlətə qarşı çıxmaq olmaz, belə halsa, ilk növbədə biz onların qarşısına çıxacağıq. Onun yazdığı status sanki iqtidara xidmət edirdi. Hesab edirəm ki, dövlətçiliyi düşünən adam belə də etməlidir. Bu baxımdan Kərimlinin statusu düzgün idi. Bunu bu cür qəbul elədim. Dövlətə qarşı kim silahlı çıxış etsə, hər kəs ona qarşı olmalıdır. Konstitusiya quruluşunu zorla dəyişmək olmaz. Amma Əli Kərimlidən fərqli olaraq, Fuad Qəhrəmanlı da daxil, onun ətrafındakı şəxslər daha sərt bəyanat səsləndirirdilər. Bəyanatlarda müəyyən çağırışlar var idi. Burada məni narahat edən bir məsələ oldu. Niyə Əli Kərimli özünü, İlham Əliyev iqtidarını qoruyan, özünə rəğbət qazandıran status yazır? Amma onun müavinləri və fəallari əksini yazır? Belə çıxır ki, mən yaxşı oğlanam, özümü qoruyuram, siz isə, demədiyim ifadələri deyin. Bu hallar məni ciddi narahat edir. Əgər sən partiyanın birinci şəxsi olaraq, zəbt etdiyin AXCP-də siyasəti müəyyən edirsənsə, çərçivədən kənara çıxılmamalıdır. Necə rəva görürsən ki, digərləri o çərçivədən kənara çıxır və özlərini təhlükəyə atırlar. Sən isə susqun qalırsan. Sonra da onlar həbs olunur. Təbii ki, onların həbsi siyasi motivlidir. Yalnız Əli Kərimli bu proseslərdə sudan quru çıxır. Niyə başqaları həbs olunur, Əli Kərimli, sən sudan quru çıxırsan? Bu suala nə zaman cavab verəcəksən? Özünü hakimiyyətə daha tutumlu şəkildə təqdim edirsən. Düşünürəm ki, Kərimlinin Nardaran və digər hadisələrlə bağlı açıqlamalarını yanındakı şəxslərin açıqlamaları ilə müqayisə etmək lazımdır. Bu zaman hər kəs görəcək ki, o, nəinki xalqımıza, öz müavinlərinə və fəallarına qarşı çirkin oyunlar aparır".

**Yeni AXCP-nin sədri bu cür həbslərin Ə.Kərimliyə gətirdiyi dividentlərdən də söz açdı:** "Bu çox böyük dividentdir. 18 oktyabrda keçirdiyimiz Etimad Qurultayında-kı çıxışımın 15 dəqiqəsini bu məsələyə həll etdim. Bu gün yenə də təkrar edirəm. Azərbaycanda vətəndaşların, cəbhəçilərin acı taleyi üzərindən məşhurlaşmaq, divident qazanmaq yaramazlıqdır. Bu kimi hallar yolverilməzdir. Heç zaman öz üzvümün həbsi, döyülməsi üzərində siyasət qurmayacam. Bunu edənlər də yaramaz insanlardır. Bu gün Fuad Qəhrəmanlı həbs olunub. Onun şəklini paylaşıb, emosiyalı şəkildə həssas nöqtələrə toxunaraq daha çox like qazanmaq, divident yığmaq istəyənlərə ar olsun. Düşünürəm ki, bu gün onun şəklini paylaşanlar, faciəsi üzərində qəhrəmanlıq qurmaq istəyənlər bir neçə gündən sonra həbsxanaya heç onun yanına da getməyəcəklər. Bu təkcə Azərbaycan siyasəti üçün deyil, həm də siyasi məkanımız üçün böyük faciədir".



### AXCP sədrinin müavininin həbsi ilə bağlı müdhiş versiyalar ortaya atılıb; Əli Kərimli Fuad Qəhrəmanlının həbsinə həsr etdiyi statusda nədən qorxub?

❑ Cavanşir ABBASLI

# "Mən MTN-dən getdim, o gəldi, sonra bu qədər hadisələr oldu"

## Namiq Abbasov: "MTN işi" ilə bağlı dediklərim incimiş adamın çıxışı kimi anlaşılacaq"



**Eldar Mahmudovun Milli Təhlükəsizlik Nazirliyinin (MTN) rəhbərliyindən uzaqlaşdırılmasıyla böyük bir cinayətkar dəstənin ölkəni şoka salan dəhşətli əməlləri üzə çıxdı.**

Hazırda MTN-in ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma faktları ilə bağlı cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Baş Prokurorluğun məlumatına görə, qeyd olunan faktlar üzrə MTN-dən qovulan 19 sabiq vəzifəli şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, 1 nəfər ev dustağı edilib, istintaqdan yayınan 1 şəxs barəsində axtarış elan edilib.

Ölkənin bəzi sabiq nazirləri məlum "MTN işi"nə münasibət bildirsələr də, 1995-2004-cü illərdə milli təhlükəsizlik naziri olmuş Namiq Abbasov hələ də susqunluğunu qoruyur.

Amma onun bu hadisələr haqda ən xırda bir açıqlaması belə, böyük maraq doğurur.

Modern.az saytının əməkdaşı MTN-in sabiq şefi Namiq Abbasovla əlaqə saxlamağa çalışıb. MTN ətrafında baş verən hadisələrə Namiq Abbasovun hansı səbəblərdən münasibət bildirmədiyini öyrənməyə çalışdıq.

Namiq Abbasov qəti surətdə son vaxtlar baş verən hadisələr barədə hələlik danışmayacağını söyləyib: "Milli Təhlükəsizlik Nazirliyində baş verən bu hadisələrlə bağlı çıxış etməyim məsləhət deyil. Məhz ona görə ki, mən MTN-dən getdim, o, (Eldar Mahmudov-red.) gəldi. Sonra bu qədər hadisələr oldu. Mənim danışmağım oradan getdiyim üçün incimiş adamın çıxışı kimi anlaşılacaq. Bu barədə danışmağı lazım bilmirəm. Müsbət də nəsə deyə bilmərəm. Bu barədə mən yox, kənar adamlar danışsa, doğru olar. Hadisələr sovuşana, tamam sakitləşənə qədər qəti surətdə çıxış etməyəcəm. Bax o zaman nəsə bir rəy bildirə bilərəm".

Namiq Abbasov 1977-ci ildən təhlükəsizlik orqanlarında fəaliyyətə başlayıb. 1979-cu ildə SSRİ DTK-nın Ali Məktəbini bitirib şöbə rəisinin müavini, şöbə rəisi, Azərbaycan SSR DTK sədrinin müavini kimi vəzifələrdə işləyib.

1992-ci ildə Azərbaycan milli təhlükəsizlik nazirinin müavini təyin edilib. Daha sonra nazirin birinci müavini vəzifəsinə irəli çəkilib. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra general N.Abbasov sabiq nazir Nəriman İmranovun vəzifədən getməsindən sonra nazir təyin edilib. Bu, 1995-ci ilin mart ayına baş verib.

N.Abbasov 1995-ci ilin mart ayından 2004-cü ilin iyul ayınadək Azərbaycan Respublikası milli təhlükəsizlik naziri vəzifəsində işləyib, general-polkovnik hərbi rütbəsinə qədər yüksəlib.

**Nazir postundan azad edildəndən sonra o, 2004-cü ilin 16 dekabr tarixindən 2012-ci il oktyabrın 31-nə kimi Azərbaycanın Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri postunda çalışdı. Səfir vəzifəsini tərk edəndən sonra təqaüdə çıxıb.**

# İcazəsiz aksiyalarla bağlı cəzalar sərtləşdirildi - cərimələr artırıldı

## İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər parlamentə göndərilib



**Milli Məclisin növbəti plenar iclası dekabrın 18-də keçiriləcək. Bu barədə Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu bildirib.**

Xidmət rəhbərinin sözlərinə görə, gündəliyə İnzibati Prosessual Məcəlləsi, Torpaq Məcəlləsi, Mülki Məcəllə, İnzibati Xətalar Məcəlləsinə dəyişiklər də təklif olunub. "Publik hüquqi şəxslər haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılacaq. "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsi isə ilk dəfə parlamentdə müzakirə ediləcək.

Azərbaycanda qanunsuz toplantıların, mitinqlərin, yürüşlərin və s. təşkili ilə bağlı məsuliyyət nəzərdə tutan maddənin adı və şərtləri dəyişdirilir, cəzalar ağırlaşdırılır. (APA) Milli Məclisdən verilən məlumata görə, bu halları nəzərdə tutan maddə yeni İnzibati Xətalar Məcəlləsində yeni redaksiyada verilib. Yeni məcəllədə "Toplantıların təşkili və keçirilməsi qaydasının pozulması" adlanan 512-ci maddədə deyilir ki, "Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkilinin və keçirilməsinin "Sərbəst toplaşmaq azadlığı haqqında" qanun ilə müəyyən edilmiş qaydasının pozulmasına görə, fiziki şəxslər 1500 manatdan 3000 manata qədər cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 200 saatdan 240 saatadək ictimai işlər və ya 2 aya qədər inzibati həbs tətbiq olunur. Vəzifəli şəxslər isə 3 000 manatdan 6 000 manata qədər, hüquqi şəxslər 15 000 manatdan 60 000 manata qədər cərimə olunur".

"Sərbəst toplaşmaq azadlığı haqqında" qanunla müəyyən edilmiş qaydanın pozulmasına görə, fiziki şəxslər 1500 manatdan 3000 manata qədər cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 200 saatdan 240 saatadək ictimai işlər və ya 2 aya qədər inzibati həbs tətbiq olunur.

Maddənin ikinci hissəsində isə deyilir ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanun ilə müəyyən edilmiş qaydada təşkil edilməyən yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və ya piketdə iştirak etməyə görə 300 manatdan 600 manata qədər cərimə, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 160 saatdan 200 saata qədər ictimai işlər və ya 2 aya qədər inzibati həbs tətbiq edilir. Maddənin "Qeyd" hissəsində isə bildirilir ki, yuxarıda nəzərdə tutulmuş əməllərdə cinayət tərkibinin əlamətləri olduqda, həmin əməllər Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyəti tətbiq olunur.

**Qeyd edək ki, göstərilən hallarla bağlı hazırda qüvvədə olan 298-ci maddə "Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkili və keçirilməsi qaydasının pozulması" adlanır və qısa olaraq belə təsbit olunur:** "Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkilinin və keçirilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasının pozulmasına görə, xəbərdarlıq edilir və ya 7 manatdan 13 manatadək miqdarda cərimə edilir". Azərbaycan Prezidenti tərəfindən təqdim olunan yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin plenar iclasına tövsiyə olunub və növbəti iclasda müzakirəyə çıxarılacaq. Məcəllə qəbul olunduğu halda mayın 1-dən qüvvəyə minəcək.

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 275 (6303) 10 dekabr 2015

# Ölkə odla su arasında

**Milli Təhlükəsizlik Nazirliyində quldurluq və soyğunçuluqla məşğul olan generalitetin ifşasından sonra ölkədə gərginlik nəzərəçarpacaq həddə artıb. Bu, bəlkə də 2005-ci ildən üzü bəri Azərbaycanın yaşadığı ən gərgin il kimi də tarixə düşə bilər. Neftin qiymətinin minimum həddə enməsinin ölkədə sosial gərginliyi artıra biləcəyi hələ ilin əvvəlindən proqnozlaşdırılırdı. Amma Qərblə Azərbaycan hakimiyyətinin münasibətlərinin yenidən gərginləşməsi, fevralda manatın devalvasiyası və noyabrdakı parlament seçkiləri 2015-ci ildə iqtidar üçün xüsusi təlatüm yaratmadı.**



# Azərbaycan məngənədə - düşmənimiz kimlərdir?

## "17 oktyabr inqilabı" adı alan proseslərdən sonra ölkə sanki bir atəş çənbərinə düşüb: internet kəsilməsi, Nardaran hadisələri, "Günəşli"platformasında yanğın və cəbhədə müharibə; hər şey bəlkə də may ayında yanan binadan başlamışdı...

**Qərblə, xüsusən ABŞ-la münasibətlərdəki gərginlik Avropa Oyunlarından sonra nisbətən aradan qaldırıldı, manatın devalvasiyasının ölkədə sosial təlatümləri tətikləməsinin qarşısı digər önləyici tədbirlərlə alındı.** Antikorrupsiya həbsləri, sahibkarlara qarşı total yoxlamaların qarşısının alınması, apteklərdə vahid qiymətləndirmə sisteminin tətbiqi sosial gərginliyi önlədi. Parlament seçkiləri isə gözlənildiyindən də sakit keçdi və seçkisonrası heç bir kütləvi etirazlar olmadı. İndi sanki Azərbaycan başı üstündə yığılan bütün "qara buludlar" son üç ayda ölkə üzərinə yağmağa başlayıb...

***

**Hələ may ayında Azadlıq prospektində çoxmərtəbəli binanın Avropa Oyunlarının açılışına sayılı günlər qalmış niyə yanmasının bir çox sualları cavabsız qalmasaydı, bəlkə də indi baş verənlər haqda aydın fikir yürütmək də olardı.** Yada salaq: həmin binanın yandırılması versiyası ilk gündən gündəmdə vardı. Hətta Rusiyanın da adı çəkilirdi. Yanan binada "Rusiyanın barmağı" məsələsi təsadüfi ortaya çıxmamışdı. Rusiya mayın 21-22-də Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramına üzv olan ölkələrin Riqada keçiriləcək sammitinə qarşı çıxmışdı, hətta iştirakçı ölkələri XİN səviyyəsində açıq təhdid də etmişdi. Bina sammitdən iki gün əvvəl-mayın 19-da yandı. Prezident İlham Əliyev həmin sammitə getmədi. Rəsmi xəbərdə bu, Avropa Oyunlarının başlanmasına çox az vaxt qalması ilə izah edildi...

Gərək ki, ürkək də olsa, yanmış bina ilə bağlı sosial şəbəkələrdə "MTN versiyası" da vardı, "Rusiya və MTN ələqələri" və sair kimi ehtimallar dolaşırdı. Amma mətbuat Eldar Mahmudovun qəzəbində "yanmaqdan" ehtiyat etdi deyə, bu barədə açıq yazmadı...

Bəli, dünya böyükdür və hər gün ən sakit və qorunan ölkələrdə də daha dəhşətli yanğınlar, teraktlar olur. Amma səbəbi bilinməyən və ya açıqlanmayan bu kimi hadisələr sonra daha böyük yanğınlara, daha ağır hadisələrə səbəb olursa, suallar da artır, panika da, qorxu da...

***

**MTN-də "17 oktyabr inqilabı" adı alan proseslərdən sonra ölkə sanki bir atəş çənbərinə düşüb.** Generalların ifşasından sonra iki xarici faktora söykənən iki versiya vardı. Birincisi, Mahmudovu İsrail kəşfiyyatına bağlayırdılar, hətta "Təl-Əviv qəzəblənəcək" deyə, başlıqlar mediaya yol tapmışdı. Sonra Mahmudovçular "Rusiyaya kökləndi". Burada isə iki ziddiyyətli mövqe vardı: MTN çetesini Rusiya ifşa edib, hətta guya Putin Astana sammitində Azərbaycan rəhbərindən belə bir xahişdə bulunub. O biri versiya isə bu idi ki, Mahmudov əslində Rusiyaya bağlı imiş...

İsrail variantı tezliklə unuduldu, çünki yəhudi hakimiyyəti Azərbaycana bu kimi kobud müdaxilələr heç vaxt etməyib. Hətta Nardaranda yəhudi bayraqları yandırılanda belə Təl-Əviv buna Azərbaycanın daxili işi kimi baxıb, xüsusi təhlükə görməyib. Qalır Rusiya variantı...

***

Ötən ay, məhz MTN şefinin işdən çıxarılmasının bir ayı tamam olanda (16 noyabrda) əsas internet provayderi "Delta Telekom" şirkətində baş vermiş yanğın səbəbindən ölkə 6 saat internetsiz qaldı. Səbəbi hələ də bilinməyən yanğının məhz ölkənin əsas provayderində baş verməsi təsadüf ola bilərdimi? Bəlkə də ola bilərdi. Amma niyə məhz "Mahmudov çetesi"nin Rabitə Nazirliyində quraşdırdığı, funksiyası bilinməyən müəmmalı qurğu yandı? Məsələn, bu qurğu uzaqdan komanda ilə yandırıla bilərdimi? Eyniylə indi "o küləkdə kim aparıb "Günəşli" yatağına mina qoya bilərdi" sualını verənlərə də haqlı bilərək soruşmaq da olar: bəlkə, o partlayıcı oraya hələ bir neçə həftə (ay) əvvəldən yerləşdirilibsə?

MTN çetesinin neft satışı ilə əlaqəsi hələ ki təsbit olunmayıb, Mahmudov dəstəsinin iqtidara bunca direniş göstərməsi də ağlabatan deyil. Amma maraqlı dövlətlər bunları edə bilər. Rusiya ilə dalaşan Türkiyə baş nazirinin Bakı səfərində Xəzərdəki qaz ehtiyatlarından danışıldı. Əgər bu səfərdəki mesajlardan sonra (məsələn, "bütün məsələlərdə Türkiyə ilə birlikdəyik" bəyanatından sonra ölkəyə Xəzərdə bunca qazla gözdağı vermək təbiətin işisə, Allah bilən məsləhətdir. Amma bunca təsadüflər ard-arda gəlincə, "Allahın bədnəzərdən xəbəri yox" deyimi də yada düşür...

***

**Azərbaycan regionda nəzərdə olan ölkədir; bizə diqqət kəsilən dövlətlərin aralarında ölkəmizi istəyəni də var, istəməyəni də...** Son aylar baş verənlər və Nardarandakı insan tələfatı ilə nəticələnən toqquşmalar Azərbaycanın bu dəfə qonşuları tərəfindən daha amansız məngənə ilə sıxıldığını göstərir. "Sendiviç sindromu" indiki hadisələri göz önünə gətirdikdə hətta "yeməli"də gəlir. İran və Rusiya arasında sıxışdırılan Azərbaycan Nardaranda xüsusi əməliyyat keçirmək məcburiyyətində qaldı. Ortada hansısa çevriliş, silahlı toqquşma, ölkədə qarışıqlı yaratmaq planları olduğu da danışılır.

Azərbaycanın kədərli gününə həmişə sevinən, sevincli günlərində isə yas tutan Ermənistanla da son günlər ölkə əsl müharibə vəziyyətindədir. Ermənistan cəbhədə həmişə gərginlik yaradıb. Amma Azərbaycanda baş verən proseslərin fonunda Ermənistanın fəallaşması onların arxasında duran qüvvəyə diqqəti cəlb edir. Sanki biriləri israrla Azərbaycanı atəşin ortasına atmaqla dincəlmir, ölkəni daha sıcaq oda tərəf dartır, məkrli planlar qurur.

***

**Azərbaycanın Rusiya ilə ilk baxışdan bölünəsi heç nəyi yoxdur, hətta münasibətlər o səviyyədədir ki, çörəyi belə indi daha tez-tez bölürük.** Amma Rusiya nə əsrin əvvəlindəki Rusiyadır, nə Kreml rəhbərliyi demokrat. Bir sıra ekspertlərin fikrincə, Rusiya dünyada kəskinləşən geopolitik qarşıdurmada əsas tərəfə çevrilməsi ilə Azərbaycanı da müəyyən proseslərə qoşmağa çalışır. Azərbaycanı indi "Günəşli"dəki məlum faciə ilə sözün əsl mənasında odla su arasında qalıb. Amma ətrafda yanğını söndürməkdən daha çox, atəşin alovlanmasını istəyənlər var. Bu səbəbdən də Azərbaycan diqqətli olmalıdır, həm də əvvəlkindən daha çox diqqətli...

❑ **"Yeni Müsavat"**

# Pənah Hüseyn QMİ-nin ləğvi iddiasını yanlış hesab edir

## "Hakimiyyətlər gəlir-gedir, ancaq Qafqaz Müsəlmanları İdarəsi saxlanılır, bu da təsadüfi deyil, müəyyən zərurətdən irəli gəlir"



Pənah Hüseyn

**ADP sədri Sərdar Cəlaloğlu Azərbaycanda dinlə bağlı ortaya çıxan problemlərin günahkarı kimi Qafqaz Müsəlmanları İdarəsini (QMİ) saydığını bildirib. Buna görə də İdarənin ləğvini tələb edib. "Yeni Müsavat"a açıqlama verən ADP sədri bu qurumun Sovet dönəmindən qaldığını da vurğulayıb: "Sovet dövründə Qafqaz Müsəlmanları İdarəsi Rusiyanın bir idarəsi idi. Əslində İslamda belə bir idarə üsulu yoxdur. Ateizmi təbliğ etmiş bir dövlətin yaratdığı idarə nəyə lazımdır indi?! Qafqaz Müsəlmanları adlı idarə şəriətə, İslama uyğun olmayan bir qurumdur.**

İndi də hökumətin əlinə işləyir deyə, onu saxlayırlar. Bu qurum vətəndaşların dini baxışlarının düzgün istiqamətləndirilməsində heç bir rol oynaya bilmir. Odur ki, Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır. Ölkədə dini məsələləri yalnız bir dövlət qurumu - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirməlidir. Bu qurum nazirlik statusundadır. Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır, onun bir sıra işçiləri Dini Komitədə müvafiq şöbələrdə işə götürülməlidir. Din sahəsində çox ciddi islahatlara ehtiyac var. Allahşükür Paşazadənin idarəsi nəyə lazımdır? Şeyxin statusunun İslam dininə heç bir aidiyyəti yoxdur".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** isə Sərdar Cəlaloğlunun Qafqaz Müsəlmanları İdarəsi məsələsinin mahiyyətini dərindən bilmədiyini düşünür. P.Hüseyn bu barədə açıqlamasında dedi ki, Sərdar Cəlaloğlunun bu məsələ barədə zəif bilgiyə malik olduğu hiss olunur. Ona görə də onun ola bilər xoş niyyətlə, amma bir az məsələnin mahiyyətini bilməməkdən irəli gələn təklifləri olur: "Unutmaq lazım deyil ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi din və dövlət məsələlərini tənzimləyir. Burada təkcə İslam dininin yox, digər dinlərin, dini cərəyanların qanun və dövlətlə münasibətlərinin tənzimlənməsindən söhbət gedir. Qafqaz Müsəlmanları İdarəsi ləğv olunmalı deyil. Bu İdarənin ciddi islahatlar aparılaraq fəaliyyətini gücləndirməsinə ehtiyac var. Bu məsələlər adətən açıq müzakirə olunmasa da hər hansı dövlətçiliyin formalaşması onda olan dini nüfuz mərkəzlərinin həmin dövlətin əlində cəmləşməsindən xeyli dərəcədə asılıdır. İslamın müxtəlif dini nüfuz mərkəzləri İranda, Türkiyədə, İraqda, Ərəbistanda yerləşir. İstər-istəməz elə məqamlar olur ki, o cümlədən dövlət məsələlərində dindarlar üçün bu və ya digər xarici ölkədə olan dini avtoritetlərin rəyi təsir göstərə bilir. Bu, tarixən formalaşıb. Diqqət eləsəniz görəsiniz ki, istər Avropada, istərsə də Şərq ölkələrinin özündə dövlətin müstəqilləşməsi din və dövlətlə yox, dini institutlarla, yəni ruhani institutları ilə dövlət institutları arasında daim bir rəqabətdə inkişaf edir. Məsələn, Avropada müasir milli müasir dövlətlər əslində Roma papasına qarşı olan mübarizədə formalaşıb".

**AXP sədri vurğuladı ki, Qafqaz Müsəlmanları İdarəsi Rusiya İmperiyası bu regionu işğal etdikdən sonra Qafqazdakı müsəlmanları İran və Türkiyənin nüfuz dairəsindən çıxarmaq üçün yaradılmışdı:** "Sovet dönəmində də Qafqaz Müsəlmanları İdarəsi saxlanıldı və onu rəhbərinə müəyyən imtiyazlar verildi. İndiki Azərbaycanın geosiyasi maraqları üçün və regiondakı maraqları üçün də Qafqaz Müsəlmanları İdarəsi çox əhəmiyyətli bir oynayır, oynaya bilər. Qafqaz Müsəlmanları İdarəsinin məhz Azərbaycanda yerləşməsinin özünün əhəmiyyəti böyükdür. Elə məsələlər var ki, onu mətbuatda geniş şərh etməyə ehtiyac qalmır. Mütəxəssislər mənim hansı məsələlərdən danışdığımı hər halda başa düşər. Ümumiyyətlə, bu məsələlər Azərbaycanın milli təhlükəsizliyi, dövlət müstəqilliyi ilə bağlı olan məsələlərdir. İstər Azərbaycan Rusiyanın müstəmləkəçiliyi altında olanda, istər SSRİ rejimində, istər müstəqillik əldə etdikdən indiyə qədər hakimiyyətlər gəlir-gedir, ancaq Qafqaz Müsəlmanları İdarəsi saxlanılır. Bu da təsadüfi deyil, müəyyən zərurətdən irəli gəlir. Şeyxülislamlıq özü də xüsusi bir institutdur. Türkiyədə Osmanlı dövründə şeyxülislam var idi və yeganə vəzifə idi ki, ancaq etnik türklərdən təyin edilirdi və nisbi müstəqilliyə malik idi. Bu cür məsələlərə ciddi yanaşmaq lazımdır, hansısa diletant təkliflərin xüsusi müzakirəsinə ehtiyac yoxdur".

❑ **Etibar SEYİDAĞA**

**Gündəm hər zaman olduğundan daha zəngindir. Həbsdən azad edilən hüquq müdafiəçisi Leyla Yunus son günlərin gərgin olaylarının fonunda müsbət işartı olsa da, ölkədə həllini gözləyən xeyli problem və cavabını gözləyən xeyli sual var. Araşdırmaçı jurnalist Eynulla Fətullayev "Yeni Müsavat"a müsahibəsində gündəmdəki mövzuları təhlil edib və ilginc açıqlamalar verib.**

# "Həbs olunan şəxslərin hamısı Eldar Mahmudovun adını çəkirlər"

## Eynulla Fətullayev: "Leyla Yunus dəfələrlə prezidentə müraciət edib, o, bəzi addımlarına görə peşmançılıq çəkirdi"



***-Eynulla bəy, bu dəqiqələrdə Leyla Yunusun azadlığa buraxılması ilə bağlı xəbər yayıldı. Necə düşünürsüz, hakimiyyətin Yunuslarla bağlı jestinin səbəbi nədir? Bunu Amerika ilə danışıqların nəticəsi adlandırmaq olar, ya siyasi məhbus məsələsində hakimiyyətin yeni taktikası?***

-Məncə, burda geosiyasi amil axtarmaq lazım deyil. Humanizmdən irəli gəlir. Xüsusən də Leyla Yunusla bağlı. Çünki qadındır. Üzücü bir haldır ki, qadın həbsdədir. Amma Leyla Yunusun bütövlükdə fəaliyyəti Azərbaycanın mənafeyinə uyğun deyildi. Doğrudur, bu, o demək deyil ki, insanın azadlığı əlindən alına bilər. İnsanların müxtəlif fikirləri, dünyagörüşləri ola bilər. Amma bu məsələdə konkret cinayət faktına gəldikdə, mən o zaman o işi araşdırmışdım. Leyla Yunusun işində, xüsusən vergi məsələsi ilə bağlı, qanun pozuntuları var idi. Bu, ilk dəfə törədilmiş cinayət deyildi. Çünki məhkəmənin hökmü var və biz artıq bu sözü deyə bilirik. Amma buna görə dərhal insanı azadlıqdan məhrum etmək humanizmdən irəli gəlmirdi. Xüsusən nəzərə alınmalıdır ki, qadındır, tanınmış ictimai xadimdir. Ən nəhayətində bilirəm ki, Leyla Yunus prezidentə müraciət edib.

***-Nə zaman olub bu? Əfvlə bağlı müraciət edib?***

-Bəli, dəfələrlə müraciət edib prezidentə. Məndə olan məlumatlara görə, bəzi addımlara görə peşmançılıq çəkirdi. Eləcə də Arif Yunus. Ona görə də hakimiyyət bunu nəzərə alaraq onların hər ikisinin azadlığa buraxılması ilə bağlı addım atdı.

***-Leyla Yunusun qadın olduğu üçün azadlığa buraxıldığını deyirsiz. Həbsdə Xədicə İsmayıl kimi qadın məhbus da var. Yunusların azadlığa buraxılması MTN işinə görə həbs edilən Rauf Mirqədirov üçün də tezliklə qapının açılacağı rəyini yaradır. Necə hesab edirsiz, hakimiyyətin siyasi məhbuslarla bağlı bu addımları davam edəcəkmi?***

-Məncə, artıq Rauf Mirqdirovun həbsdə qalması üçün heç bir əsas qalmayıb. Məncə onu Yunusların işinə görə həbs etmişdilər. İlk gündən demişəm ki, Rauf Mirqədirov günahsızdır, vicdan məhbusudur. Onun həbsi siyasi motivlidir. Hansısa məmurlar özlərini sədaqətli göstərmək üçün Rauf Mirqədirovu Yunusların işinə cəlb ediblər. Bəli, onların yaxınlığı, iş münasibətləri ola bilər, onların bir neçə layihəsində iştirakı da mümkündür. Amma bu, onun həbsi üçün əsas deyil. Düşünürəm ki, Rauf Mirqədirovun həbsində hansısa xarici qüvvələr maraqlı olub. Bundan başqa, daxildə onun tənqidinə tuş gələn məmurlar da bu həbs üçün qanunsuzluq ediblər. Amma məncə, Rauf Mirqədirov dərhal azadlığa buraxılmalıdır.

### "Milli Təhlükəsizlik Nazirliyinin adı dəyişməlidir, bu ad insanlarda ikrah yaradır"

LeylaYunusun azadlığa çıxmasından sonra onun da çıxacağı ehtimalları güclənir. Xədicə İsmayılovaya gəlincə, əlbəttə, o da azadlıqda olmalıdır. Çünki jurnalist həbsdə olmamalıdır. Mən onunla mübahisə də etmişəm, onun fəaliyyətini tənqid də etmişəm. Amma ilk gündən də hesab edirəm ki, o, həbsdə olmamalıdır. Birincisi jurnalist, ikincisi qadın olduğuna görə. Bizim milli mentalitetimiz var. Burda digər ölkələrin də təcrübəsi var. Azərbaycan qanunvericili imkan verir ki, ev dustaqlığı ölkədən tərk etməməklə bağlı iltizam versin. Yəqin ki, hökumət yaxın vaxtlarda bu qərara yenidən baxacaq.

***-"Günəşli" neft yatağında baş verən yanğının izləri hələ də davam edir. Ortada ciddi ittihamlar və versiyalar var. Siz bu proseslərin təhlilində hansı nəticəyə gəlirsiz?***

-2012-ci ildə Böyük Britaniyada çox ciddi təbii fəlakət baş vermişdi platformada. 123 nəfər neftçi itkin düşmüşdü. Ondan sonra heç birinin meyiti də tapılmamışdı. Norveçdə də neft qəzası olub, 167 nəfər dünyasını dəyişib. Bu cür hadisələr dünyanın istənilən ölkəsində baş verir. Məsələnin başqa tərəfidir ki, burda SOCAR öz işində dönüş etməlidir. Sual doğur ki, niyə bu neftçilər bir gün öncədən dənizə buraxılıb? Hava proqnozunda deyilmişdi ki, həmin gün Xəzərdə yüksək külək olacaq, hava şəraiti o platformada işlərin davam etdirməsini məqbul saymır. Məncə burda bəzi məmurların, məsul şəxslərin məsuliyyəti var. Amma mən bu hadisənin siyasiləşdirilməsinin tərəfdarı deyiləm. Meksika körfəzində BP-nin platformasında da partlayış olub. BP bu günə qədər onun fəsadları ilə mübarizə aparır. Azərbaycanda da bu hadisə olub. İndi yüksək səviyyədə kompensasiya verilməlidir neftçilərin ailələrinə. Hakimiyyət Azərbaycanda yüksək iqtisadi səviyyə olduğunu deyir, dünya ilə müqayisə edirlər. Müqayisə varsa zəhmət çəkib neftçilərin ailələrinə də Avropa və Amerikada baş verən qəzalardan sonra ailələrə verilən kompensasiya qədər yüksək kompensasiya verilməlidir.

***- Binəqədidə baş verən məlum yanğından sonra icra hakimiyyətində əvvəllər işləmiş bir məmuru həbs etdilər. Güman edilir ki, "Günəşli"də baş vermiş yanğına görə də əlaqəsiz və ya aşağı ranqlı bir məmur cəzalandırılsın. Sizcə niyə hadisəyə birbaşa cavabdeh olan şəxslər lazımi cəzalarını almırlar? Bu taktikanın səbəbi nədir?***

-Burada araşdırmalar aparılmalıdır. Komissiya müəyyən etməlidir ki, həmin gün hava şəraitini nəzərə alaraq itkin düşmüş neftçilərin həmin platformada işlərini davam etdirməsinə icazə verib. Kim onlara yasaq verməyidi? Həmin gün BP-nin platformasında iş qadağan olunmuşdu. Dövlət Komissiyası var, istintaq orqanları müəyyən etməlidir ki, hansı məmur bu situasiyaya görə məsuldur. Təbii ki, cəzalanmalıdır. Həmin gün Xəzərdə 11 metrlik dalğa qalxmışdı. Xəzərdə belə hal 1957-ci ildə baş vermişdi. Əfsanəvi neftçi Koveroçkin 30 neftçi ilə Xəzərdə batmışdılar. Bakı şəhərində onun adına küçə var. Xəzərin tarixində iki dəfə ciddi təlatüm olub. Bu, məsələnin obyektiv tərəfidir. Amma subyektiv baxımdan yanaşanda SOCAR bundan nəticə çıxarmalıdır, neftçilərin hüquqları qorunmalıdır.

***-Son aylar ölkədə gündəm nə qədər sürətlə dəyişsə də, MTN olayları yenə də unudulmur. Hələ də davam edən bir proses olduğu üçün gözləntilər də çoxdur. Amma bununla belə cavabını tapmayan sualların olması da diqqət çəkir. Sizcə, bu məsələdə son durum nəyi göstərir? Hakimiyyət MTN-lə bağlı məsələdə mübhəmi tam çözübmü? Proses hara qədər davam edəcək?***

### "Artıq Rauf Mirqədirovun həbsdə qalması üçün heç bir əsas qalmayıb. Məncə, onu Yunusların işinə görə həbs etmişdilər"

- Məncə, hakimiyyət MTN məsələsində olduqca prinsipial və ədalətli mövqe tutdu. Bəlkə də bir çox dövlət başçısı xüsusi xidmət orqanları ilə bağlı prosesi bu cür şəffaf həyata keçirə bilməzdi. Çünki xüsusi xidmət orqanları dövlət içində dövlətdir. 20 nəfər yüksək ranqlı şəxs həbs olundu. İllər boyunca mən özüm jurnalist kimi yazılar yazmışam. Son illər bunu etmək çətin idi. İndi məlum olur ki, bu şəxslər kriminal fəaliyyət göstərirdi. Mütəşəkkil cinayətkar dəstə yaratmışdılar, insanları qanunsuz həbs etmişdilər. Quldur yuvası idi. Bu yuvanı dövlət başçısının siyasi iradəsi ilə dağıtmaq olardı. Xüsusi xidmət orqanları o qədər qapalıdır ki, dövlət başçısına bununla bağlı məlumat bir və ya iki mənbədən daxil ola bilər. Məncə bu məlumatlar daxil oldu, təsdiqləndi və tədbir görüldü. Artıq Cahangir Hacıyevin həbsindən sonra - bu mütəşəkkil dəstəyə iqtisadi sektordan olan şəxslər də daxil idi - Eldar Mahmudovun həbsinə də yol açılıb. O, özünü məsuliyyətdən kənarda hiss edə bilməz və etməməlidir. Çünki necə ola bilər ki, böyük bir nazirliyin 20-ə yaxın yüksək vəzifəli şəxsi həbs olunsun, amma nazir yox? Vəkillər vasitəsilə sızan məlumatlara görə, həbs olunan şəxslərin hamısı nazirin adını çəkirlər. Bu proses onun həbsi ilə nəticələnəcək.

***-İlk gündən həbsin onunla başladılması daha çox gözlənilən idi.***

-Görürsüz ki, "Beynəlxalq bank" prosesləri Cahangir Hacıyevin həbsi ilə nəticələndi. Kreditləri qanunsuz olaraq paylayan şəxs həbs olunmamışdı. Mən bu yaxınlarda məlumat əldə etmişəm ki, Cahangir Hacıyev nəinki öz adına debüt kart götürüb, bankın hesabından milyonlarla manat vəsait xərcləyib, eyni zamanda Azərbaycanda yüzlərlə adama o debüt kartları paylayıb. Sanki o, Beynəlxalq Bankın vəsaitlərinə ata malı kimi baxıb. 6 ay biz sual verirdik ki, niyə Cahangir Hacıyev həbs olunmur? Proses yekunlaşdı və həbs olundu...

***-Eldar Mahmudovun həbsi də 6 ay ərzində baş tutacaq bu məntiqlə?***

-Məncə, bu da baş verəcək. Bu, qaçılmazdır, proses bununla yekunlaşacaq. Söhbət təkcə MTN-dən getmir. Məsələ Azərbaycanın maliyyə resurslarına, ehtiyat fonduna, milli varlığına vurulan böyük zərbədən gedir. Azərbaycan kimi ölkə üçün 7 milyard böyük pullardır. Bu isə oğurlanıb, dağıdılıb. Eldar Mahmudov da bunda bilavasitə iştirak edib. MTN-də bankları kurasiya edən idarə var idi. Bu, həm də ölkənin maliyyə təhlükəsizliyi deməkdir. Eldar Mahmudov nəinki maliyyə təhlükəsizliyini təmin etmədi, ümumən bu sistemi çökdürdü.

***-Bu günlərdə belə bir xəbər yayıldı ki, "Akif Çovdarov Eynulla Fətullayevdən tələb edib ki, ondan yazmasın". Bu, son dönəmə aid xəbərdir, ya bir neçə il əvvəl Elmar Hüseynovun qətli ilə bağlı araşdırma aparan vaxt aldığınız xəbərdarlıqdan gedir söhbət?***

-Bu söhbət 2010-cu ildə olub. Mən o zaman məhkəmədə, ondan əvvəl Akif Çovdarovla bağlı məqalələrə çıxış edirdim, onu kriminal fəaliyyətdə ittiham edirdim. O zaman bir çox jurnalistlər, mənim vəkilim MTN-ə çağırılıb, incidildi. Vəkilim də o zaman Akif Çovdarovla bağlı olan söhbəti indi yenidən xatırladır.

***-Akif Çovdarovun həbsi Elmar Hüseynovun, eləcə də səs-küylü siyasi qətllərin üstünü açacaqmı? Yoxsa MTN-lə bağlı cəmiyyətdə ajiotaj böyüməsin deyə bu məsələni "bir daş altda, ir daş üstdə" deyə saxlayacaqlar?***

-Onsuz da MTN-lə bağlı məsələ cəmiyyətdə yetərincə böyüdü. Hadisələr göstərdi ki, MTN əslində, buraxıldı. Bu presedentsiz bir hadisədir. 200-ə yaxın məsul şəxs nazirlikdən çıxarılıb. 20-dən artıq insan həbsdədir. Bu isə o anlamı verir ki, nazirlik buraxılıb və yenidən yaradılıb. Yaxşı olardı ki, bu nazirlik ümumən buraxılsın. Çünki Eldar Mahmudovun üsuli-idarəsi dövründə bu nazirliyə o qədər ləkə gətirildi ki, "milli təhlükəsizlik nazirliyi" ifadəsi insanlarda ikrah hissi yaradır. Ümidvaram və əminəm ki, prezidentin ora təyin etdiyi insanlar - bəzilərini şəxsən tanıyıram - ləyaqətli və çox müsbət keyfiyyətlərə malikdirlər. Onlar yenidən bu nazirliyi yaradıb, ayrı-ayrı siyasi qrup və insanlarla qisas aparatına deyil, Azərbaycanı xarici və siyasi təhlükələrdən qoruyan nazirliyə çevirəcəklər. Hər gün yeni bir xəbər yayılır. Subayir Məmmədova əlavə 7 əlavə ittiham və maddələr irəli sürülüb. Hər gün yeni ittiham və xəbərlərlə qarşılaşırıq. Bir sıra qətllər var ki, onların üstü açılmayıb və onları MTN araşdırırdı. Elmar Hüseynov, Rail Rzayevin qətli... Bilirsiz ki, Rail Rzayev Eldar Mahmudovun evinin yanında qətlə yetirilib. İctimaiyyət tələb etməlidir ki, bu qətllərin üstü açılsın. Mən ümidliyəm ki, nazirliyin yeni rəhbərliyi bu qətllərin açılmasında maraqlı olacaqlar və bu qətllərin üstü açılacaq.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 275 (6303) 10 dekabr 2015

# Təlatümlü 2015-ci il...

## Devalvasiya, yanan bina, Mingəçevir, Nardaran, Eldar Mahmudov olayları, "Günəşli" faciəsi...

**2015-ci ilin bitməsinə 3 həftə qalır. Artıq 2015 rəqəmi ölkəmiz üçün sadəcə bir tarix olacaq. Təəssüf doğuran məqamlardan biri budur ki, 2015-ci il daha çox faciəvi hadisələrlə xatırlanacaq. İqtisadiyyatımız da bu il yaxşı heç nə vəd etmədi. Siyasi gündəmin ən gözlənilməz hadisələri isə iki nazirin vəzifədən getməsi və onların cinayətkar əməllərinin aşkara çıxarılması oldu. Əgər əvvəlki illərdə hakimiyyət media, QHT sektoru və ya müxalifətlə mübarizə aparırdısa, bu il mübarizə hakimiyyətin daxilində getdi.**

*Olduqca qaynar hadisələrlə yadda qalan 2015-ci ilin siyasi yekunlarını politoloqlar necə dəyərləndirir?* "Yeni Müsavat"a açıqlamasında bu ili heç nə nikbin dəyərləndirməyən **politoloq Elxan Şahinoğlu** ən yaddaqalan hadisələri belə sıraladı: "2015-ci ilə devalvasiya ilə başladı. Bu cəmiyyət üçün soyuq duş effekti idi, çünki uzun müddət idi ki, manat sabitliyini qoruyurdu, hamı bu cür həyata alışmışdı. Ancaq o da bəlli idi ki, neftin qiymətləri endiyindən manatı qorumaq çətin olacaq. Devalvasiya gözlənildiyi kimi qiymətlərin sürətli qalxışına rəvac vermədi. Birincisi, ona görə ki, Azərbaycanda qiymətlər onsuz da bahadır, hansı qərbli diplomatla söhbət edirəmsə eyni sözü deyirlər; "Azərbaycandakı qiymətlər Avropanın ən bahalı şəhərlərindən də yüksəkdir". Qiymətlərin sürətli qalxışına digər manеə məmurların sahibkarlara qadağası idi. Çünki yayda Bakıda Avropa Olimpiya Oyunları keçiriləcəkdi və ona görə əhalini narazı salmaq olmazdı. Ancaq indi baxıram ki, aldığım ərzaq məhsullarının qiyməti hər keçən gün artır. Bu prosesin gələn il də davam edəcəyini proqnozlaşdırıram. Neftin qiymətləri düşür, büdcə kəsiri artır, demək hökumətin növbəti devalvasiyaya getməkdən başqa alternativi qalmayıb. Sadəcə, əsas məsələ budur ki, devalvasiya bu ilin fevral ayında olduğu kimi birdən-birə 20-30 faiz olacaq, yoxsa iqtisadi ekspertlərin dediyi kimi üzən məzənnəyə keçəcəklər. Əslinə qalsa, bunun vətəndaş üçün elə bir əhəmiyyəti yoxdur, çünki hər iki halda həyat şərtləri ağırlaşacaq".

**Politoloqun sözlərinə görə, 2015-c ilin digər ən yadda qalan hadisəsi MTN-də aparılan təmizləmə əməliyyatı oldu:** "Prezident milli təhlükəsizlik nazirini vəzifəsindən azad etdi və bəlli oldu ki, başda nazir olmaqla onunla əlaqədə olan bir qrup generalın etmədikləri cinayət qalmayıb. Adları çirkaba bulaşan generalların əməlləri nəticəsində MTN-in imicini sağlamlaşdırmaq xeyli vaxt aparacaq. Nazir Eldar Mahmudov və general Akif Çovdarovlar kimilərdən qurtulmayana qədər bizi nə inkişaf, nə də tərəqqi gözləyir. Beləiləri siyasi və iqtisadi islahatlara əngəldirlər. Adi bir fakt deyim. Azərbaycan illərdir Ümumdünya Ticarət Təşkilatına üzv olmur, danışıqlar 20-ci ilinə qədəm qoyub. Halbuki, bütün qonşularımız bu qurumun üzvüdür. Bəs niyə rəsmi Bakı bu üzvlüyə yaşıl işıq yandırmır? Çünki, Azərbaycanı maraq dairəsinə bölən oliqarx-nazirlər Ümumdünya Ticarət Təşkilatının ticarətdə və gömrükdə şəffaflıq prinsipləri ilə çalışmaqdan qorxurlar. Onlar məhz qeyri-qanuni əldə etdikləri inhisarları sayəsində varlanıblar, əldə etdikləri kapitalı itirmək istəmirlər".

**E.Şahinoğlu bu il Dağlıq Qarabağ münaqişəsinin həllində də irəliləyiş olmadığın qeyd etdi:** "Böyük dövlətlər əvvəlki tək Ermənistana təsir etmək istəmirlər ki, birinci addım kimi Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılsın. Rusiya-Türkiyə gərginliyi fonunda münaqişənin danışıqlar yoluyla həlli ümumiyyətlə mümkün görünmür. İlin başlanğıcından ortalarına qədər belə bir söz-söhbət gəzirdi ki, guya Rusiya Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması üçün Ermənistan hakimiyyətinə təzyiq edəcək. Mən bu söz-söhbətə heç zaman inanmadım. Rusiya-Türkiyə gərginliyindən sonra isə bu söhbətlər ümumiyyətlə arxa plana keçdi. Kreml Türkiyənin Cənubi Qafqazdakı strateji müttəfiqi - Azərbaycan üçün addım atmayacaq".



**Elxan Şahinoğlu:** "2015-ci ilin devalvasiya ilə başlaması cəmiyyət üçün soyuq duş effekti idi"

**2015-ci ilin yekunları ilə bağlı "Yeni Müsavat"a danışan Ərəstun Oruclu da bildirdi ki, 2015-ci il həm region, həm də ölkə üçün çox pessimist il oldu:** "Əslində bu həm də gözlənilən idi. Elə proqnozlarda da göstərilirdi ki, 2015-ci ildən xüsusi bir irəliləyiş gözləməyə dəyməz. Artıq 2014-cü ilin sonundan başlayaraq, Azərbaycan üçün çox mühüm olan neftin qiyməti düşməyə başladı. Bu da artıq öz təsirlərini ölkə iqtisadiyyatında göstərməyə başlamışdı. 2015-ci il neftin qiymətindən qaynaqlanan bir çox dəyişikliklərlə yadda qaldı. İndiyədək qürurla milli valyutanın sabitliyi haqqında danışılan sözlər artıq tarixdə qaldı. Elə ilin əvvəlində manat devalvasiyaya uğradı. Bundan sonra ölkədə həm yoxsulluğun, həm işsizliyin səviyyəsi artmağa başladı. İqtisadi böhran dərinləşdi. İqtisadçı ekspertlər də illər boyu deyirdilər ki, Azərbaycan iqtisadiyyatı birmənalı olaraq neftdən asılıdır və neft qiymətləri ucuzlaşarsa, bu Azərbaycan iqtisadiyyatında çox neqativ şəkildə özünü göstərəcək və göstərdi də. Eyni zamanda bu il ölkədə ictimai-siyasi sferada müəyyən gərginlik müşahidə olundu. Amma həm müxalif düşərgə, həm vətəndaş cəmiyyəti, həm QHT-lərin fəaliyyətdən kənarlaşdırılmasından sonra ictimai-siyasi proseslərin mərkəzi hakimiyyətin daxilinə keçdi. Biz hakimiyyət daxilində ciddi gərginlik müşahidə etdik və o bu gün də davam edir. Ölkənin əsas nazirliklərindən olan MTN-lə bağlı geniş bir kompaniya aparıldı, vəzifədən azad edilənlər, ölkədən kənarlaşdırılanlar, həbs edilənlər oldu. Nazirliyin əksər əməkdaşları bu prosesə cəlb olundu. Bununla yanaşı Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov və həmin nazirliyin bir neçə yüksək rütbəli rəsmisi həbs edildi. Əslində demək olar ki, bu proseslər gələcəkdə də davam edəcək".



**Ərəstun Oruclu:** "Həm müxalif düşərgə, həm vətəndaş cəmiyyəti, həm QHT susdurulduğu üçün bu il ictimai-siyasi proseslərin mərkəzi hakimiyyətin daxilinə keçdi"

**Ə.Oruclunun sözlərinə görə, ümumilikdə 2015-ci il sosial-iqtisadi göstəricilər baxımından çox uğursuz bir il oldu:** "Bu tənəzzül də istər-istəməz, ictimai-siyasi proseslər təsir göstərdi. Biz may ayının 19-da böyük bir yanğının şahidi olduq. Yaşayış binasında yanğın və xeyli insanın həlak olması cəmiyyətdə çox neqativ reaksiyalar doğurdu. Binalara vurulan poliuretan üzlüklər söküldü. Bundan sonra bir çox gərginliklər də yaşandı.

Həmçinin Mingəçevirdə bir gəncin polis tərəfindən döyülərək öldürülməsi əhalinin ayağa qalxmasına səbəb oldu. Şəhərə əlavə polis qüvvələri yeridildi. Bu da 2015-ci ilin arzuolunmaz hadisələrindən biri idi. Ən nəhayət, "Günəşli" yatağında baş verən yanğın və buna olan ictimai reaksiya hələ də davam etməkdədir.

Yeni 2015-ci il ölkədə hakimiyyətlə xalq arasında uçurumun dərinləşdiyi, xalqın qəzəbinin artdığı bir il oldu. Bu həm ən müxtəlif səviyyələrdə hakimiyyət rəsmilərinin insanlara münasibətindən, həm də sosial-iqtisadi böhranın fəsadlarından qaynaqlanır".

**"Bu il Azərbaycanın xarici siyasəti də uğursuz oldu" - deyən Ə.Oruclu bildirdi ki, 2015-c ilin sonlarında artıq xarici siyasətin konturları dəyişməyə başlayıb:** "Azərbaycan intensiv şəkildə Türkiyə ilə əməkdaşlığı qurmağa cəhd göstərir. Görünür, əvvəlcədən Rusiyaya yönəlik siyasi kurs özünü doğrultmadı. Belə qarışıq bir il oldu. Dağlıq Qarabağ məsələsi ilə bağlı hər hansı irəliləyiş olmadı.

Çox solğun sönük şəkildə, ən adi seçki standartlarından kənar şəkildə seçki keçirildi və parlament formalaşdırıldı və biz bu parlamentə "seçilmiş" deputatların ilkin fəaliyyətinin şahid olduq. Gəncədən olan deputatın Rəsulzadə haqqında yaramaz fikirləri cəmiyyətdə etiraz doğurdu. Bu il üçün ən başlıca amil isə, Azərbaycanda hakimiyyətlə xalq arasındakı uçurumun sürətlə dərinləşməsi oldu. Ölkədə islahatlar başladılmadı. Bu gün də Vergilər Nazirliyi sahibkarları çökdürməklə məşğuldur, bu gün də insanlar ölkəyə məhsul gətirə bilmirlər, Gömrük Komitəsi tərəfindən soyğunçuluğa məruz qalırlar. İlin son günlərində neftin yenidən ucuzlaşması dalğası onu göstərir ki, biz pessimist bir göstərici ilə 2016-cı ilə qədəm qoyuruq".

❑ **Nərgiz LİFTİYEVA**

# İnsan məskən salır...



**Hüseynbala SƏLİMOV**

**Bəli, bir neçə gün idi ki, kədərimi bölüşmək üçün bir fürsət axtarırdım. Ürəyimi didib-parçalayan ağrıdan qurtulmaq üçün bir vasitə arayır və özümü ora-bura vururdum. Bütün operativ xəbərləri izləyir, gözümü televizordan çəkmirdim...**

Amma kədərim sovuşmurdu ki, sovuşmurdu. Hətta bir axşam dənizin sahilinə də yollandım...

Bir xeyli baxdım, baxdım. Ağlıma qəribə bir fikir gəldi. Ömrümdə ilk dəfə başa düşdüm ki, Xəzər bizim üçün sadəcə, bir qonşu deyil, həm də dərdimizi-sərimizi bölüşdüyümüz bir həmdəmdir...

Başa düşdüm ki, Xəzər təkcə onun qoynunda çimmək üçün bir su dəryası deyil, dərdimizi-sərimizi və acılarımızı-ağrılarımızı bölüşdüyümüz bir sirdaşdır. Amma bütün bunlar da hələ hamısı deyil - başa düşdüm ki, Xəzər həm də bizim bəzilərimizin son məkanı, son məzarıdır...

Amma kədərim sovuşmurdu ki, sovuşmurdu. Elə bu anlardan biri idi ki, bir də gördüm "İnsan məskən salır" filmini göstərirlər. Bu filmi həmişə çox sevmişəm. Ona görə ki, filmin qəhrəmanlarından biri də Xəzərdir. Filmdə Xəzərin coşmasını və aşıb-daşmasını elə böyük ustalıqla göstərirlər ki, adam gözlərini ekrandan ayıra bilmir...

Filmin musiqisini Q.Qarayev yazıb... Bütün musiqi orqanda ifa edilir. Qara Qarayev elə bir uğurlu ifadə forması tapıb ki, adam musiqinin sehrindən qopa bilmir...

Sovet filmləri həmişə təsiri ilə seçilib. Amma burada sovet sözü şərtidir, çünki film dəniz haqqındadır, insan haqqındadır. Ona görə də adam baxdıqca baxmaq istəyir...

Elə "insan məskən salır" cümləsini də çox mənada başa düşmək olar. İnsan bir yerdə ağac əkməklə, ev tikməklə də məskən salır, məzar salmaqla da...

Əslində Xəzər bizim üçün müqəddəsləşməlidir. Bu dənizə baxanda unutmamalıyıq, yaddan çıxarmamalıyıq ki, burada bizim insanlar uyuyur. Bir qərinə keçəcək, bu günün ağrıları unudulacaq. Necə ki, gec-tez bütün ağrılar unudulur. Amma məzarlıqlar həmişə qalır. Və insanlar onlara həmişə ehtiram göstərir...

Bu bir neçə gündə insanlar çox çabaladılar, çox düşündülər-daşındılar, axırda bir dəstə qərənfil götürüb dənizin sahilinə yollandılar...

Xəzər qərənfilləri birinci dəfə deyildi ki, görürdü. Amma ilk dəfə idi ki, dəniz özü qərənfilləri qəbul edirdi... Çox təsirli mənzərə idi. Təbii ki, adam heç istəməzdi ki, belə olsun! Hamı istərdi ki, dəniz həmişə şux bir yer olsun, onun ulu vüqarı əskilməsin...

Amma həyat həyatdır. Dəniz də dənizdir... Həyatın öz qanunları var. Elə dənizin də öz qanunları var. Nə vaxtsa oxumuşdum ki, bir vaxtlar həlak olan dənizçiləri elə dənizin özünə tapşırırlarmış...

Daha nə demək olar? Bəli, insan məskən salır... Bəzilərimiz son məskənlərini dənizdə saldılar...

Onu deyim ki, mən hadisədən bir az qürur da duydum. Qoy, hamı bilsin ki, bizim adamlar təkcə bazarlarda meyvə satmaqla məşğul olmurlar. Onlar dənizdən neft çıxarırlar. Onlar dənizdə həlak olurlar. Qoy, bilsinlər ki, bizim T.Salahovun rəsmlərindəki insanlar bir rəssamın təxəyyülünün məhsulu deyil, belə insanlar olub və indi də var...

Bəli, bütün ağrılar-acılar bir gün unudulur. Bu ağrı da unudulacaq. Bu yara da sağalacaq, qaysaq bağlayacaq... Amma bir dəniz elegiyası qalacaq bu ölkədə...

Kimsə "Ləpələr..." mahnısını pıçıldayacaq. Kimsə başqa bir şərqi deyəcək. Gəl ki, hamı bir söz deyəcək: Xəzər, məni duyursanmı?..

Xəzər də gah şahə qalxacaq, gah sakitləşib öz nəğməsini pıçıldayacaq. Bəli, özünün əbədi nəğməsini... İllər keçəcək, biz də köçəcəyik bu dünyadan. Amma həmin həzin nəğmə, həzin və xəfif pıçıltı qalacaq...

O pıçıltını bizim uşaqlarımız, nəvələrimiz eşidəcək... O mahnıda çox şey deyiləcək, Xəzər çox şeyə şahidlik edəcək - gördüklərindən, qoynuna aldığı bu şəhərin insanlarının qayğılarından, bu insanların yuxularından danışacaq...

Bu yuxularda bir dəniz də olacaq, bir dəniz pıçıltısı da olacaq. O pıçıltı deyəcək ki, insan məskən salır, bəli, insan məskən salır, özü də dənizin göy ləpələrinin qucağında...

Beləcə, "İnsan məskən salır" filmi məni bir az toxtatdı. Bir az sakitləşdirdi, o, səbəbdən ki, dərdi dərd sovuşdurar, "Dərdi dərd ötürər" deyiblər...

**Film bu dərdi də sovuşdurdu. Ona görə ki, film dəniz neftçiləri haqda idi və bu söz artıq çox şey deyir. Bəli, film dəniz neftçiləri haqda idi...**

YENİ MÜSAVAT
N 275 (6303) 10 dekabr 2015



# Milli barışıq

Zamin HACI
zaminhaci@gmail.com

## (Leyla Yunusun zindandan çıxmasına ithaf edilir)

**10 dekabr nəsə beynəlxalq insan hüquqları günü tipində bir şey olmalıdır, ancaq bizə nə dəxli var? Ona görə də heç qeyd eləməyə ehtiyac yoxdur. Bizim öz milli-mənəvi dəyərlərimiz ola-ola, niyə gedib xaricdən maşın almalıyıq? Guya xaricdə bizim Gül bayramını qeyd edirlər? Bax, elə dünən mən gözəl bir mətn oxudum, istərdim ordan parçanı sizlərə də çatdırım.**

"Biçarə çocuq iki-üç yaşından başlayaraq məktəb otağına girincəyə qədər xurafat uçurumlarında yuvarlanıb gedir. Bir otaqdan digər otağa girəcək olsa "damdabaca"lar ilə qorxudulur... Qaranlıq bir yerə getsə cinlər, divlər ilə təhdid edilir... Otuz yaşına gəlsə belə o qorxunc kölgələri bir dürlü başından çıxarmaz olur... Binəva çocuq sabahdan axşama qədər küçədə, bacada, toz-torpaq içində yaşar, qoşar, nəhayət bir yeri səqətlənir, yaxud ordan-burdan dürlü-dürlü misri xəstəliklərə hədəf olur gedər. Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin" deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o qan qusmuş cönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlansın" - deyir.

**İndi böylə vəhşi, cahilanə bir həyatdan, ölçü-biçisi olmayan bir mühitdən, pozuq, uyğunsuz bir tərbiyədən nə fayda hasil ola bilir? Təbii heç..."**

Bunu Hüseyn Cavid 1910-cu ildə "Həqiqət" qəzetində yazıbdır. Ümidvaram valideynlərimiz və müəllimlərimiz bu gözəl təlimatı əllərində daim tutacaqdır. Yoxsa çoxdandır uşağı divlə qorxuzan görmürəm, belə getsə dəyərlərimiz ayaq altında qalacaqdır. Polislə qorxutmaq effekt vermir. Hər dəfə kimlərsə müxalifətçi çıxır, gərək bunu tutasan, onu buraxasan, bunu təzədən tutub o birini təzədən buraxasan. Profilaktika hardadır? Cinayətlərin qabağını biz uşaq vaxtından almalıyıq, balaca manqurtlar yetişdirməliyik ki, sonra üzümüzə ağ olmasınlar. Rəhmətlik ədliyyə nazirimiz Südabə xanım demişkən: "Demokratiyanı beşiyində boğmaq lazımdır". Məncə abort eləmək daha səmərəli üsuldur. Görünür Südabə xanım bu sözləri deyəndə hələ Avropa Şurasına girməmişdik, abortlara icazə verilmirdi.

**Oxucumuz İbadulla bəydən qəfil bir məktub gəlmişdir, onu da yazaq, qalıb kiflənməsin: "Ay Zamin, bir ay bundan əvvəl deputat seçkisində Nardaranlılar 54.3% (MSK) iştirak edib, deputat seçib. Və bu göstərici Respublika üçün orta göstəricidən yuxarıdır. İndi necə olur bu "dalaqalmış, işıq-su-qaz pulu verməyən" kənd belə aktiv seçki keçirir?".**

Birincisi, bu oxucu özünü elə aparır ki, guya biz yaxın tanışıq, hətta əsgərlikdə bir yerdə olmuşuq. Vallah, hökumətin nəzərinə çatdırım, mən bu adamı qəti tanımıram. "Ay Zamin" müraciət forması sırf təsadüfdür. Bəlkə də təxribatdır. İstəyir məni düşmən kimi qələmə versin. "Nardaranlılar" və "Respublika" sözlərini böyük hərflə yazmağından da hansı cəbhənin adamı olmasını ifşa edir. Yəqin bu millətçi bir şəxsdir. Bəlkə də əslən nardaranlıdır. Ümid edirəm əlaqədar orqanlar məktubu araşdıracaqdır. İp ucu olaraq deyim ki, məktub 10-luq arial şriftində yazılıbdır. Tapa bilməsəniz xəbər eləyin.

Başqa xoş xəbərlərimiz də var, araya qəza-filan düşdü, şərh eləmədik. Misal üçün, İlhamə Quliyeva ilə Natəvan Həbibinin barışması çox xoş oldu. Hələ bu harasıdır, Natəvan Həbibi İlhamə Quliyeva ilə barışmağa gedərkən yolüstü Sevda Yahyayeva ilə barışıbdır! Bu sülhməramlı aksiyaların təşəbbüskarı Tolik olmuşdur. Pişik Günellə Aygün, Röya Ayxanla Şeron qrupu, Faiqlə Elariz, Coşqunla Tosqun da barışıblar. Mən bunları oxuyuram, çox sevinirəm. Ümid edirəm qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Beynəlxalq Həmrəylik Günü münasibətiylə Ərdoğanla Putin, Ən Nüsra cəbhəsiylə İŞİD, Bəşər Əsədlə Əl Bağdadi-də barışar.

Dahi rəhbərimiz demişkən, bəs deyilmi, ey insanlar, töküldü qan, axdı qan?!

**Yazını bu xoş ovqatla bitirirəm.**




# Kremlin danışan dili Azərbaycanı və Türkiyəni hədələdi - "Hamı üçün pis olacaq"

## Rusiya rəhbərliyi açıq edə bilmədiyi təhdidləri öz ruporu vasitəsi ilə çatdırmağa başlayıb; Duqin: "Bizi savaşa məcbur etsələr, İstanbulun adı təzədən dəyişə bilər"; "Qarabağda müharibə hamı üçün pis olacaq..."

**Türkiyə ilə Rusiya arasında yaşanan gərginlik informasiya, təbliğat və iqtisadi savaş formasında davam edir. Bir çox analitiklər aradakı gərginliyin iki ölkənin toqquşa biləcəyi müştərək bölgələr və ortaq konfliktlər fonunda hara kimi dərinləşə biləcəyini təxmin eləməyə çalışırlar. Belə bölgə və konfliktlərdən biri və birincisi sözsüz ki, Güney Qafqaz və Qarabağ münaqişəsidir. Məsələyə, Moskvadan ekspert baxışları da maraq doğurur.**

**"Dağlıq Qarabağ münaqişəsini nə Azərbaycanın, nə də Ermənistanın xeyrinə həlli mümkün deyil. Türkiyənin isə bu konfliktə ümumiyyətlə, heç bir aidiyyəti yoxdur. Heç bir halda Rusiya-Türkiyə münaqişəsindən hansısa ölkənin regional maraqları naminə istifadə eləmək olmaz. Çünki Rusiya münaqişə tərəflərindən heç birini müdafiə eləməyəcək - biz həm ermənilərlə, həm də azərbaycanlılarla dostuq".**

Rusiyalı tanınmış ictimai xadim, sosioloq və politoloq, "Beynəlxalq Avrasiya Hərəkatı"nın lideri, eyni zamanda Kremlin "danışan" dillərindən sayılan Aleksandr Duqin bu sözləri Minval.az saytına müsahibəsində Ankara-Moskva münasibətlərinin kəskinləşməsinin regiondakı duruma, o sırada Dağlıq Qarabağa mümkün təsirlərini şərh edərkən bildirib.

Onun iddiasına görə, Rusiyanın əsas vəzifəsi Qarabağa konfliktinin qızışmasına imkan verməməkdir: "Əks halda bu, hamı üçün pis olacaq. Heç kim situasiyadan birtərəfli qaydada faydalanıb özünün regiondakı strateji mövqeyini yaxşılaşdıra bilməyəcək. Bu konflikt heç kimə lazım deyil, ona görə ki, ondan yararlanıb da müsbət nəticələr əldə eləmək mümkünsüzdür. Mən vəziyyətin mürəkkəbliyini və münaqişə tərəflərinin narazılığını başa düşürəm, ancaq Qarabağda status-kvonu dəyişməyə edilən istənilən hərbi cəhd regionda vəziyyəti yalnız daha da ağırlaşdıracaq və yeni qanlara gətirəcək, özü də heç bir yekun nəticə olmadan".

***

Türkiyə-Rusiya münasibətlərinin mövcud durumuna toxunan Duqin bu münasibətləri "faktiki, dərin böhranda olan" kimi təqdim edib: "Ona görə də Türkiyənin hazırkı iqtidarı öz hərəkətlərini dərk eləməli və nə qədər gec deyil, könüllü şəkildə hakimiyyətdən imtina eləməlidir. Ya da siyasi kursunu kəskin əks tərəfə dəyişməlidir... Vurulan Rusiya təyyarəsi ilə bağlı insident mahiyyət etibarilə ona gətirdi ki, hər iki tərəf indi müharibə öncəsi durumdadır. Əlbəttə ki, belə vəziyyət nə Türkiyənin, nə də Rusiyanın maraqlarına cavab verir. Bu insident amerikayönlü qüvvələrin təşkil elədiyi təxribata bənzəyir".

Lakin Duqin sanksiyalara rəğmən, Rusiyanın müharibədən çəkinmədiyini də vurğulayıb: "Sanksiyalardan dolayı Rusiyada vəziyyət elə də faciəvi deyil. Məsələ ondadır ki, ruslar yalnız onda ayılırlar ki, həqiqətən vəziyyətin pis olduğunu dərk edirlər. Yada salın, neçə müharibəni biz udmuşuq. Demək olar, hamısını. Təzələrini də udacağıq. Bizi dinclik və toxluq korlayır, iztirab və müharibə isə mətinləşdirir. Ola bilsin, bu, ən yaxşı xüsusiyyət deyil. Amma nə etməli, başqa rus xalqı yoxdur. Mövcud olan rus xalqı da dostlara qarşı çox xeyirxah, düşmənlərə qarşı isə dəhşətlidir. Ən yaxşısı, onunla oyun oynamamaqdır".

"Yeri gəlmişkən, bütün rus-türk müharibələrin nəticəsində Osmanlı İmperiyasının ərazisi kiçilib, Rusiya İmperiyasının isə böyüyüb. Biz müharibə istəmirik, ancaq əgər buna məcbur edilsək, o zaman istisna deyil ki, dünyanın ən böyük şəhərlərindən birinin adı (İstanbulu nəzərdə tutur - S.S.) təzədən dəyişməli olacaq. Və heç bir sanksiya bizi dayandıra bilməyəcək", - deyə o, hədələyici tonda fikrini tamamlayıb.

***

Əlbəttə ki, rusiyalı politoloq, lazım gələrsə, Qarabağ düyününü hərbi yolla kəsməyi istisna etməyən Azərbaycanı və onun 1 nömrəli müttəfiqi Türkiyəni hədələməklə yanaşı, bir çox məqamlarda blef edir, yanılır, yalan danışır, məkrli şəkildə təhriflərə yol verir. Əvvəla, Türkiyə-Rusiya müharibələrinin hamısının qalibi Rusiya deyil, 12-yə yaxın müharibənin beşindən Türkiyə qalib ayrılıb. Biz hələ 300 illik monqol-tatar hökmranlığını demirik. Rusiya öz tarixində hətta bir dəfə Yaponiyaya da uduzub (1905).

Başqa yandan, sirr deyil ki, strateji əhəmiyyətli, xristian dünyasının hələ də gözünün qaldığı İstanbulu (keçmiş adı Konstantinopol) ələ keçirmək planları həmişə rusların ürəyində qalıb. İndi təzədən bu arzunu dilə gətirmək vur-tut nostalji hissindən və xəstə ambisiyadan başqa bir şey deyil. Rusların öz sözü ilə desək, "Arzu eləmək ziyanlı şey deyil" ("Meçtat ne vredno").

Ancaq təbii ki, Duqinin açıqlamalarında Türkiyənin ünvanına ciddi hədələr var və bu hədələr şübhəsiz, "Su-24" insidentinin Rusiya siyasi-ictimai isteblişmenti və ekspert dairələri tərəfindən heç cür həzm oluna bilməməsi ilə, bundan da betəri, Rusiyanın Türkiyə ilə yeni müharibədən obyektiv səbəblərdən çəkinməsi ilə bağlıdır. Hər halda NATO üzvü, dünyanın 4-cü ordusuna sahib Türkiyə Rusiyadan ötrü Ukrayna, Suriya deyil - bunu kim bilməsə də duqinlər əla bilir.

Kremlin "danışan dili"nin yeni hədələri sözsüz ki, həm də "Su-24" olayından sonra Bakı-Ankara əlaqələrinin daha da istiləşdiyi, o cümlədən qardaş ölkənin Rusiyadan qaz asılılığının azalmasında Azərbaycanın da dəstəkçi olmağa hazır olması haqda səslənən bəyanatlar, prezident İlham Əliyevin "Bütün məsələlərdə Türkiyənin yanındayıq" zəmanətindən sonraya təsadüf eləməsi ilə diqqət çəkir. Bu mənada onları Bakının həm də bu xüsusda ciddiyə almasına lüzum var...

***

O ki qaldı Qarabağ məsələsinin Türkiyəyə heç bir aidiyyəti olmaması iddiasına, bu da əlbəttə ki, tər-təmiz blefdir və ilk öncə qardaş ölkənin regional supergüc olaraq mövcudluğuna qısqanc münasibətin təzahürüdür. Gerçək habelə budur ki, Ankara ölkəmizin əsas təhlükəsizlik qarantıdır, Rusiya işğalçı ölkə üçün hansı dəyərdədirsə, Türkiyə də Azərbaycan üçün təxminən eyni dəyərdədir.

Üçüncü yandan, Kremlin bölgədə əsas forpostu olan Ermənistanın cilovlanmasında Ankaranın onunla sərhədləri qıfılda saxlaması da mühüm rol oynayır. Erməni də, rus da yaxşı fərqindədir ki, sabah savaş qızışırsa, Türkiyə neytral qalmayacaq. Qarabağ münaqişəsinə aidiyyət başqa necə olur ki?

**O ayrı məsələ ki, Ankara və Moskva birgə səylərlə konflikti yoluna qoymaq üçün unikal imkana sahibdir. Əfsus ki, bu şans Kremlin təxribatları nəticəsində qeyri-müəyyən müddətə əldən verildi.**

❑ Siyasət şöbəsi

# "Təbii fəlakətdir, olmamalıydı, olub"

## Siyavuş Novruzov: "Bu vəzifə ona verilib ki, xalqa xidmət etsin, qaçıb xalqdan gizlənməsin"

**YAP icra katibinin müavini, Milli Məclisdə yeni yaradılan İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Yeni Müsavat"a geniş müsahibə verib. Xəzərdə baş verən faciəvi hadisə, Nardaran olayları, qanunların sərtləşdirilməsi, "MTN işi", parlament partiyalarının narazılıqları və digər mövzulardan bəhs edən söhbətimizi təqdim edirik:**

***- Siyavuş bəy, 4 dekabrda "Günəşli"də baş verən hadisənin təxribat olması barədə məlumatlar getdikcə artır. Bu barədə siz nə deyə bilərsiniz?***

- Bu, təbii fəlakətdir. Mən də bəzi mətbuat orqanlarında görürəm ki, ayrı-ayrı siyasətçilər, daha doğrusu, siyasətbazlar qızışdırmağa çalışırlar, hardasa nöqsan axtarmağa çalışırlar. Bu, təbii fəlakətdir, olan hadisədir. Allah ölənlərə rəhmət eləsin! Tapılmayanlar tapılsın, sağ-salamat qayıtsınlar! Ekspertlərin rəylərindən də görünür ki, çox güclü qasırğanın nəticəsi olaraq belə bir faciə baş verib. Dünyanın hər yerində belə hadisələr olur. Ən yüksək texnologiyaya malik olan Yaponiyada sunami 30 minə yaxın insanın həyatına son qoydu, nə qədər şəhərlər, hətta AES dağıldı. Təbii fəlakət gözlənilməz bir şeydir və bunun qarşısının alınması da çox çətin məsələdir. Məsələn, işi 9 bal gücünə hesablayırsan, görürsən 11 bal oldu. Yəni insan hələ təbii hadisələrə tam hazır deyil.

***- Təbiətdən kənarda günahkar yoxmu? Yəni ən azı insan itkilərinin sayını azaltmaq mümkün deyilmi?***

- Məlumatlardan siz də şahidsiniz ki, bütün aidiyyəti orqanlar gecəli-gündüzlü bu işlə məşğul olub, lakin xilas etməyə imkan olmayıb.

***- Bəs, fəlakətə qədər necə? Hava proqnozu açıqlanmışdı...***

- Fəlakətə qədər kim gözləyirdi ki, burada qaz partlayışı olacaq və yanğın baş verəcək.

### "Elə bilirlər ki, ölkəyə ziyan dəyəndə bunlar Azərbaycanda hakimiyyətə gələcəklər"

Estakada orda qurulub və orda həm insanların yaşaması üçün yer var, həm də işləməsi üçün. Heç kəs gözləmirdi ki, qaz birdən partlayacaq və insanları xilas etmək gündəmə gələcək. Xəzər dənizi küləkli dənizdir və burda hadisələr ola bilər. Yenə deyirəm, bu, təbii fəlakətdir.

***- Belə fikirlər də var ki, bp-nin çalışdığı platformada vəziyyət tamam fərqli imiş...***

- Elə bir neçə il bundan qabaq bp-nin Sakit okeanda tankerləri dağıldı, boruları partladı, şirkət sahilyanı ölkələrə 50 milyarddan artıq kompensasiya ödədi. Yəni bp-nin özündə də belə hallar baş verir. Bu, təbii fəlakətdir, olmamalıydı, olub. Cəmiyyətimiz düzgün başa düşməlidir. O insanların yaxınlarının ürəyində şübhə yaradılmamalıdır. Dövlət tərəfindən də lazımi addımlar atılır. Onların həm kompensasiya məsələsi, həm sığortası həllini tapır. Təbii ki, insan itkisini heç nə ilə ödəmək mümkün deyir. Bütövlükdə xalqımız üçün bir fəlakətdir.

***- Xarici amil, təxribat məsələsi araşdırılacaqmı?***

- Bunu aidiyyəti strukturlar araşdırır. Ancaq verilən məlumatlarda isə göstərilir ki, bu, sırf qasırğa nəticəsində baş verib. Yəni bu, hər hansı partlayış, atəş zərbəsindən, yaxud qurğudan baş verən hadisə deyil. Təbii ki, bu, hələ söndürülməlidir, demontaj olunmalıdır, ondan sonra bu məsələlər daha dəqiq şəkildə araşdırılacaq.

### "Sevinclərinin həddi-hüdudu yoxdur ki, neftin qiyməti düşəcək, Azərbaycanda krizis yaranacaq. Bu krizis bütün xalqın əleyhinə olacaq"

***- YAP rəhbərliyi doğmalarını itirən ailələrə baş çəkibmi?***

- Başsağlığı vermişik. Partiyanın sədr müavini, Baş nazirin müavini Əli Əhmədov xəstəxanada oldu, ziyan çəkənlərlə görüşdü. Bizim yerli təşkilatlara da tapşırıqlar vermişik, çünki bir çoxları rayonlardadır. Biz də bu prosesdə yaxından iştirak edirik.

***- Nisbətən arxa plana keçən Nardaran hadisələrindən sonra qanunlar xeyli sərtləşdirildi...***

- Yox, bəzən qanunların qəbul olunmasını belə izah edirlər ki, guya bu, Nardaranla bağlıdır. Ancaq belə bir şey yoxdur. Belə bir qanunun qəbuluna çoxdan zərurət var idi. Özü də bu, tək İslam dininə qarşı deyil, ümumilikdə dini ekstremizmə qarşıdır. Hətta həmkarlarım da təklif etdi və biz gələcəkdə biz buna da baxacağıq. Ekstremizmin müxtəlif növləri var, onların da qanunda əksini tapmasını gündəmə gətirəcəyik. Amma bu gün dövlət quruluşunun dəyişdirilməsinə cəhd edənlərdən, ayrı-ayrı ölkələrdəki silahlı birləşmələrdə iştirak edənlərdən söhbət gedir... Dəqiqləşdirilməmiş məlumata görə, Azərbaycandan təqribən min nəfər ayrı-ayrı dini qrupların tərkibində silahlı dəstələrə qoşulub.

***- Ancaq görünən budur ki, qanunların sərtləşdirilməsi də onların yolunu kəsmir. Hətta bu günlərdə Türkiyədə İŞİD-ə qoşulmaq istəyən daha 17 azərbaycanlı tutulub...***

- Hər halda biz çalışırıq. Hətta qanunlar o qədər sərtləşib ki, bu, vətəndaşların itirilməsinə qədər gətirib çıxara bilər.

***- Deyək ki, vətəndaşlığını itirdilər, onların sonrakı taleyi necə olacaq?***

- Sonrakı taleyini artıq o özü müəyyənləşdirməlidir. Birinci növbədə onların törətdiyi hər hansı əmələ görə məsuliyyətə cəlb olunmasından söhbət gedir. Tutaq ki, ona 15 il cəza verilirsə, deməli söhbət vətəndaşlıq məsələsindən söhbət getmir. Yəni vətəndaşlığın itirilməsi lap son həddir. Bunun törətdiyi əməl o qədər ağır olmalıdır ki, cəza ilə yanaşı vətəndaşlığı̇nı itirməsi də baş versin. Cinayət Məcəlləsində də bu məsələlər sərtləşdirilib.

***- ADP sədri Sərdar Cəlaloğlu Qafqaz Müsəlmanları İdarəsinin ləğvi təklif edib. Komitə sədri olaraq bu məsələyə yanaşmanız necədir?***

- Mən bununla razı deyiləm. Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanda ta qədimdən fəaliyyət göstərir və istər Ali Dini Şurada, istər Qazilər Şurasında kifayət qədər sambballı insanlar toplaşıb. Tək Azərbaycanda deyirəm, başqa ölkələrdə də Azərbaycanın bütün şeyxülislamları və indiki Şeyximiz böyük hörmətə və diqqətə layiqdir. Azərbaycanın maraqları çərçivəsində addımlar atır, lazım olan məsələləri qaldırır.

***- Hesab olunur ki, xaricdə dini təhsil alanlara qoyulan qadağa Şeyxə də şamil olunmalıdır. Sizin arqumentiniz necədir?***

- Keçmişdə sovetlər birliyi vahid ölkə idi və vahid vətəndaşlıq sənədinə malik idik. Biz onda bir ölkənin vətəndaşıydıq, Sovet İttifaqının. Həm də qanunun geriyə qüvvəsi yoxdur. Buna görə də məsələ Şeyxə şamil oluna bilməz. Digər tərəfdən də o, çox yaxşı işlər aparır. Biz əksinə, ona kömək etməliyik, nəinki idarənin ləğvinə çalışmalıyıq. İstər məscidlərdə, istər ayrı-ayrı dini icmaların rəhbərləri bu gün Şeyxin və İdarənin tövsiyələrini yerinə yetirir. Biz ona daha çox kömək etməliyik ki, ənənələrimizə uyğun olmayan dini cərəyanlar, yaxud dini ekstremizmlə məşğul olan qüvvələr bura daxil olmasın.



### "Son hadisə vaxtı bir "ölü qurum" var Milli Şura adında, onun rəhbərləri qızışdırıcı mövqedən çıxış etməyə başladılar"

***- Məlumata görə, artıq bu həbslər siyasi müxalifətə istiqamətlənib. AXCP sədrinin müavininin həbsi də bununla əlaqələndirilir...***

- Bununla bağlı aparılan istintaq özü bu haqda geniş məlumat verəcək. Mən də baxıram ki, hər kəs öz rəyini söyləyir. Amma konkret fikri və orda baş verənlərlə bağlı hüquq mühafizə orqanları vaxtaşırı məlumat yayır.

***- Sabiq nazir Eldar Mahmudovun tabeçiliyində işləmiş şəxslər həbs edildiyi halda, özünün sərbəst buraxılması da son vaxtlar əsas suallardandır...***

- Bununla bağlı da hüquq mühafizə orqanları şərh verə bilər.

***- Parlament müzakirələrində həmkarlarınız Milli Məclisin hətta komitə rəhbərliyində onlara təmsilçilik hüququnun verilməməsindən şikayətlənirlər. Partiya sədrlərinin iradları ilə razısınızmı?***

- Bizim parlamentin daxili nizamnaməsinə uyğun olaraq fraksiya azı 25 nəfəri təmsil etməlidir. Hazırda YAP 71, bitərəflər 41 nəfərlə təmsil olunur. Yerdə qalan siyasi partiyalar da 1-2 nəfərlə parlamentdə təmsil olunur. Dünyanın heç yerində bu cür təmsilçiliyə nə komitə sədliyi, nə sədr müavinliyi verilmir. Orda müxalifət də yekcins deyil. Bir müxalifət partiyası da digərini qəbul etmir. Elə qardaş Türkiyəni götürək, AKP var, ondan sonra CHP, yaxud MHP-nin kifayət sayda üzvləri var və fraksiya təşkil edirlər. Ancaq bizdə partiya sədri millət vəkili seçilib, artıq onun geniş fraksiyası yoxdur ki, bölgülərdə də nəzərə alınsın. Bu gün parlamentdə iki fraksiya var və hər ikisi vəzifədə təmsil olunub. Yəni sədr müavinlərindən biri bitərəflərdəndir, o cümlədən komitə rəhbərlərindən bir neçəsi onları təmsil edir.

***- Deputatlar nazirlərdən də şikayətçidir. Nazirlər şəxsən sizin telefonlarınıza cavab verirlərmi?***

- Nazirlər şəxsən mənim telefonuma cavab verirlər. Burda da obyektiv və subyektiv səbəblər var. Təbii ki, hər insan müraciətə cavab verməlidir, bu, onun bilavasitə vəzifə borcudur. Cənab prezident də dəfələrlə bununla əlaqədar tapşırıqlar verib ki, dövlət vəzifəsi daşıyan şəxs xalqa xidmət etməlidir. Bu vəzifə ona verilib ki, xalqa xidmət etsin, qaçıb xalqdan gizlənməsin. Nazirlərin regionlara səfəri, qəbullar keçirməsi də xalqa xidmətdir. Bu yaxınlarda statistika ilə tanış oldum, bu qəbullar təxminən 80 faiz müraciətlərin azalmasına səbəb olub. O baxımdan məhz deputatların da müraciətlərinə təbii ki, baxılmalıdır. Digər tərəfdən deputat da müraciət edəndə sırf seçicisini maraqlandıran, yaxud təmsil etdiyi regionla bağlı olan müraciət etməlidir. Yoxsa kimisə işə düzəltmək, kimisə işdən çıxartmaq, başqa problemlərin həll etməklə bağlı müraciət etmək olmaz. Onda hər iki tərəf qarşılıqlı halda bir-birini daha yaxşı başa düşər.

***- Yeri gəlmişkən, baş nazirin 1-ci müavini Abid Şərifovun taleyindən xəbəriniz varmı?***

- Məlumatım yoxdur. Cənab prezident hazırda Çin Xalq Respublikasında rəsmi səfərdədir. Yəqin ki, bir aydınlıq olar.

***- Daha bir neçə nazirin vəzifədən azad olunacağı, hətta həbs ediləcəyi xəbəri yayılmaqdadır.***

- Şayiələr yayılır. Hər gün oxuyuram ki, filankəs işə çıxmadı, bəhmankəsi artıq tutublar... Bu yaxınlarda AXCP-nin sədr müavini də facebook səhifəsində dövlət əleyhinə çağırışlarla və milli, dini ayrıseçkiliklə bağlı yazılara görə məsuliyyətə cəlb olunub, araşdırma gedir. Dəfələrlə deyilib ki, bu cür hallar olmasın, bu cür çağırışlar qanunla qadağandır, olmaz! Ancaq buna əhəmiyyət verilmir. Bəziləri qəsdən bunu edir ki, polulyarlaşsın. Hansısa səbəblərə görə beləri qanunun tələblərinə əməl etmir. Dövlət sirlərinin, hərbi sirlərin yayılmasına yol vermək olmaz! Elə son hadisə vaxtı "ölü qurum" var, Milli Şura adında, onun rəhbərləri qızışdırıcı mövqedən çıxış etməyə başladılar. Yəni insanlara təskinlik verməkdənsə, qızışdırıcı mövqedən çıxış etdilər, insanları dövlət əleyhinə yönəltməyə çalışdılar. Məsələn, oxuyuram ki, neftin qiymətinin aşağı düşməsinə görə bunların sevincinin həddi-hüdudu yoxdur. Neftin qiyməti olanda bundan Azərbaycan xalqının xeyrinə istifadə olunurdu da. Yeni obyektlər, məktəblər tikilir, iş yerləri açılır, yollar, körpülər salınır. Tikilən məktəbdə bütün Azərbaycan xalqının uşaqları oxuyur, təkcə YAP-ın, yaxud iqtidarın uşaqları deyil ki. O parkda hamı istirahət edir, o cümlədən müxalifətçilər də. Çəkilən yaxşı yolla onlar da hərəkət edirlər. Ancaq görürsən ki, sevinclərinin həddi-hüdudu yoxdur ki, neftin qiyməti düşəcək, Azərbaycanda krizis yaranacaq. Bu krizis bütün xalqın əleyhinə olacaq. Görünür ki, bunların əməlləri ondan ibarətdir ki, nə olur-olsun Azərbaycana ziyan dəysin. Elə bilirlər ki, ölkəyə ziyan dəyəndə bunlar Azərbaycanda hakimiyyətə gələcəklər. Bunlar hamısı xülyadır.

❑ **Elşad PAŞASOY**



# "Ölən və xəsarət alan neftçilərə daha çox kompensasiya verilməlidir"

## Ekspertlər bildirirlər ki, birdəfəlik müavinət neftçilərin əmək haqqından asılı olaraq, təxminən yüz min manat civarında olmalıdır

**SOCAR-ın "Günəşli" yatağındakı 10-cu dərin dəniz özülündə, o cümlədən "Neft Daşları"nda baş vermiş bədbəxt hadisə dünyasını dəyişən, xəsarət alan neftçilərə ödəniləcək kompensasiyaların həcmi açıqlanıb. Nazir Səlim Müslümovun rəqəmlər açıqlaması ortaya bir sual çıxarır. Əslində, qanunla necə olmalıdır? İş zamanı həyatını itirən və həmçinin xəsarət alan neftçilərin ailələri hansı məbləğdə kompensasiya ilə təmin olunmalıdır? Yəni Səlim Müslümovun dediyi birdəfəlik veriləcək kompensasiya nə dərəcədə ədalətlidir? Qeyd edək ki, əksər hüquqşünaslar bu açıqlanan rəqəmləri tələsik hesab edir və bildirirlər ki, nazirin açıqladığı 80-140 min manatlıq vədi həqiqəti əks etdirmir. Onların fikrincə, birdəfəlik müavinət neftçilərin əmək haqqından asılı olaraq, təxminən yüz min manat civarında olmalıdır. Üstəlik, ortada xeyli başqa ödəniləcək məbləğlər də var. Ekspertlər nazirin bu rəqəmi açıqlamasını qanunvericilikdə nəzərdə tutulan digər kompensasiyaları ört-basdır etmək cəhdləri kimi qiymətləndirirlər.**

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının hüquqşünası Azər Quliyev** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bütün bu hallar Əmək Məcəlləsində konkret şəkildə göstərilib. Həmçinin Nazirlər Kabinetinin bir neçə qərarında bu barədə dəqiqliklə göstərilib: "Bədbəxt hadisələrdən və peşə xəstəliklərindən işçilərin icbari sığortası var. Bu qanuna uyğun, eyni zamanda Əmək Məcəlləsinə uyğun Nazirlər Kabinetinin bir neçə qərarı var. Vəfat edən işçilərin ailəsində 18 yaşı tamam olmamış və 23 yaşınacan ali məktəbdə təhsil alan uşaqlar varsa, eyni zamanda əlil olan ailə üzvləri varsa, orta əmək haqqının yüz faizinə yaxın məbləğdə aylıq sığorta pulu alacaqlar. Eyni zamanda, sonrakı beş il müddətinə əlillik qrupu alan ailə üzvləri olarsa, kompensasiya onlara da şamil ediləcək. Xəsarət alanlar isə təyin olunacaq əlillik dərəcəsinə uyğun olaraq müavinət alacaqlar. Bu, onların əmək haqqından da asılı olacaq. Hər bir işçi sığortalanır. Vəfat edənlərin vərəsələrinə birdəfəlik ödənc ödənir. Tibbi müayinə ilə bağlı deyə bilərəm ki, bütün tibbi xidmətlər sığortanın hesabına ödəniləcək. Eyni zamanda, vəfat edənlərin ailəsinə Əmək Məcəllesi ilə üç aylıq əmək haqqı həcmində müavinət də ödəniləcək. Yəni bunlar mütləq olmalıdır".

**Qeyd edək ki, neftçilərə ödəniləcək kompensasiyaların həcmi açıqlanıb. Əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov bildirib ki, 3 azyaşlı uşağı, yaşı 30-35 arası olanlara, əmək haqqı 600-650 manat olan dünyasını dəyişən neftçilərin ailələrinə 80 min manat həcmində kompensasiya ödəniləcək:** "Təbii ki, bu rəqəm neftçinin əmək haqqından, iş stajından, ailə üzvlərinin sayından asılı olaraq 140 min manata qədər çata bilər. Bütün bunlar "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunla tənzimlənir".

**Nazir qeyd edib ki, xəsarət alan neftçilərə əlillik dərəcəsi təyin olunacaq:** "Məsələn, təxliyyə olunan neftçilər biri Mərkəzi Neftçilər Xəstəxanasından 5 saylı Şəhər Klinik Xəstəxanasının Yanıq şöbəsinə yerləşdirilib. Məlum olub ki, həmin neftçinin yanıq dərəcəsi 60 faizdir. Həmin neftçiyə I dərəcəli əlillik təyin olunacaq". S.Müslümov qeyd edib ki, araşdırmalar zamanı məlum olub ki, 66 neftçinin hər biri əmək müqaviləsi ilə çalışıb.

**Son olaraq isə ölən və itkin düşən neftçilərin kredit borcları bank tərəfindən bağışlanıb. "Bank of Baku"dan APA-ya bildirilib ki, yanğında həyatını itirən və itkin düşən neftçilər arasında, sayı 11 olmaqla, bankın daimi müştəriləri də var. Bank faciə nəticəsində həyatını itirmiş və itkin düşmüş neftçilərin ailələrinə dəstək məqsədi ilə, həmin neftçilərin bankda mövcud olan bütün kredit borclarının bağışlanması qərarını qəbul edib.**

❑ Röya RƏFİYEVA

# Ekspertlərdən xəbərdarlıq - növbəti devalvasiya qaçılmazdır

## Hökumət manatı saxlamaq üçün addımlar atır, amma...

**Neftin qiymətlərinin enməsi fonunda manatın ucuzlaşma ehtimalları yenidən güclənir. Ekspertlər manatın dəyərdən düşəcəyini ciddi şəkildə səsləndirməyə əsas verən çox sayda səbəblər açıqlayırlar. Bildirilir ki, rəsmi açıqlamalarda manat üçün təhlükəli hədd 40 dollar qeyd edilir ki, artıq bu həddir.**

Ekspertlərə görə, hökumət manatı saxlamaq üçün addımlar atır, amma nəticəsizdir. Üstəlik, mövcud amillər devalvasiya ehtimalını artırır. Mərkəzi Bankın ehtiyatları sürətlə əriyir və artıq kritik həddə yaxınlaşır. Bu səbəbdən hökumət müəyyən həddən sonra manatı dəstəkləməkdən imtina edəcək...

**Ekspert Əkrəm Həsənov** musavat.com-a bildirib ki, devalvasiya qaçılmazdır: "Prinsipcə, Elman Rüstəmov demişdi ki, neftin qiyməti 40 dollardan aşağı düşsə, devalvasiya ola bilər. Neft bu gün artıq bu həddi aşıb. Düzdür, sonra yenə 40 dollardan bir qədər çox oldu. Amma bu, artıq prinsipial deyil. Tendensiya göz önündədir. Əslində, lap 50 dollar da olsa belə, devalvasiya qaçılmazdır. Çünki Mərkəzi Bankın valyuta ehtiyatları əriyir. Ölkənin valyuta gəlirləri azalır. Mərkəzi Bank da ötən müddət ərzində devalvasiyanın qarşısını almaq üçün heç bir əməli tədbir görmədi".

Qeyd edək ki, ölkədə pul kütləsi də azalır və proqnozlara görə, azalma davam edəcək. Pul kütləsinin azalmasına gəldikdə, ekspert bildirib ki, bu da manatın dəyərdən düşməsi ilə bağlıdır: "Əslində pul kütləsi deyil, manat kütləsi azalıb dövriyyədə. Çünki hamı pulunu dollara çevirib. Ticarət dili ilə desək, Mərkəzi Bankın buraxdığı malı, yəni manatı bəyənməyərək özünə geri qaytarıb, əvəzində dollar alıb. Nəticədə Mərkəzi Bankın valyuta ehtiyatları azalıb, buraxdığı manat isə özünə qayıdıb. Çünki əhali manata artıq etibar etmir. Buraxdığın malın keyfiyyətini təmin etmirsənsə, malın geri qayıdır. Manatın keyfiyyəti, yəni dəyəri azalıb, buna görə də ona tələbat azalıb. Manatın yerini dollar tutub. Əlbəttə, iqtisadiyyatımız üçün bu, çox pis haldır. Əvvəla, bu, ölkənin maliyyə suverenitetinin zəifləməsidir. Daha sonra bu, o deməkdir ki, ölkədəki iqtisadi tənəzzül davam edəcək. Çünki pulunu harasa qoymaq istəyən yoxdur. Hamı pulu dollara çevirib bərk-bərk saxlayıb əlində. Bu isə iqtisadiyyat üçün çox pisdir".

**Ekspert Samir Əliyev** də musavat.com-a bildirib ki, neftin dünya bazarlarında qiyməti 40 dollara yaxınlaşdıqca devalvasiya məsələsi gündəmi zəbt edir: "Bu, təsadüfi deyil. Çünki rəsmi açıqlamalarda manat üçün təhlükəli hədd 40 dollar qeyd edilir. Neft isə artıq psixoloji həddi hətta bir dəfə keçib və hazırda sərhəd xəttinə yaxındır. OPEK-in hasilatı azaltmaması neft ucuzlaşdırıb. Üstəgəl, ABŞ iqtisadiyyatı ilə bağlı müsbət statistik məlumatlar və Avropa Mərkəzi Bankının kəmiyyət yumşaldılması proqramını genişləndirmək niyyəti dünya maliyyə bazarlarında dolların mövqeyini daha da gücləndirib. Noyabrda dünya valyutası digər əsas valyutalara münasibətdə möhkəmlənib və proses dekabrda da davam edir. Azərbaycanda noyabrda dollar nisbətən möhkəmlənsə də, dekabrdan mövqeyi bir qədər zəifləyib".



Əkrəm Həsənov



Samir Əliyev

**Ekspertin sözlərinə görə, xeyli vaxtdır dolların manata olan rəsmi məzənnəsi Mərkəzi Bankın müəyyənləşdirdiyi çərçivədə - 1,0466 - 1,0537 civarında "rəqs edir":** "Noyabrda ABŞ valyutasının bahalaşması hər 100 dollara cəmisi 21 qəpik oldu. Dolların kəskin bahalaşması Mərkəzi Bankda ehtiyatlarını xərclənməsi bahasına gəldi. Təkcə noyabr ayında baş bankın rəsmi valyuta ehtiyatları 8,6 faiz və ya 589 milyon dollar azalaraq 6,3 milyard dollara düşüb. Bu, son 5 ildə ən aşağı həddir. Sonuncu dəfə 2010-cu ilin noyabrda ehtiyatın həcmi bu səviyyədə, yəni 6,1 milyard dollar olub. 2015-ci ilin 11 ayında isə valyuta ehtiyatı 55 faiz azalıb. Halbuki ilin əvvəlində Mərkəzi Bank 13,6 milyard dollarlıq ehtiyata malik olub".

**S.Əliyev qeyd edib ki, hökumət manatı saxlamaq üçün addımlar atır, amma nəticəsizdir:** "İl sona yetir. Hökumət manatı qorumaq və devalvasiya təzyiqlərini azaltmaq üçün müəyyən addımlar atmalı oldu. 2015-ci ilin dövlət büdcəsini ixtisar etməli oldu. Büdcə xərclərinin proqnozu 21 milyardan 17,7 milyard manata endirildi. Əsas zərbə altında qalan Neft Fondundan dövlət büdcəsinə transferi 10,4 milyarddan 8,1 milyard manata endirdi. Eyni zamanda Neft Fondunun xaricdəki aktivlərinin bir hissəsini, təxminən 900 milyon dollara yaxın vəsaiti ölkəyə gətirməli oldu. Mərkəzi Bank isə bu il valyuta ehtiyatının yarıdan çoxunu qurban verməli oldu. Bütün bunlara rəğmən, təzyiqlər nəinki səngimədi. Hətta müəyyən zaman kəsiyində daha da gücləndi. Yenə də hamı manatın taleyi düşündürür. Devalvasiya gözləntisi sanki cəmiyyətin canına hopub. Nə qədər çətin olsa da, deməliyik ki, artıq devalvasiyanın olub-olmaması yox, onun necə və nə vaxt baş verməsi müzakirə mövzusudur. Mövcud amillər devalvasiya ehtimalını artırır. Azərbaycanın ən böyük valyuta ehtiyatı cəmləşən Neft Fondu çətin durumdadır. Fondun bu il gəlirləri ən yaxşı halda 7 milyard manat civarında olacaq. Halbuki Fondun təkcə büdcə qarşısında öhdəliyi 8,1 milyard manatdır. Deməli, Fondda təxminən 2 milyard manata yaxın kəsir yaranacaq və yəqin ki, xaricdəki aktivlərinə müraciət etməli olacaq. Devalvasiya Neft Fondu üçün əlavə oksigen ola bilər".

**Ekspert qeyd edib ki, daha bir problem ölkənin tədiyə balansında yaranır:** "Altı aylıq məlumata görə, cari hesablar balansında cəmisi 63 milyon dollar profisit var. Halbuki ötən ilin müvafiq dövründə bu göstərici 100 dəfə- 6 milyard dollardan çox idi. İdxal tam rəsmləşdirilsə, bunun mənfi saldo olduğu açıq görünər. Manat üçün hazırda ən böyük təhlükə ölkədən kapital axınıdır. Kapital axını növbəti illərdə əsas problem olaraq qalacaq. Bununla bərabər Mərkəzi Bankın ehtiyatları sürətlə əriyir və kritik həddə yaxınlaşır. Hökumət ehtiyatların kəskin əriməsinə imkan verməyəcək. Müəyyən həddən sonra, təxminən 5-6 milyard dollar xərcləyəndən sonra manatı dəstəkləməkdən imtina edəcək".

**S.Əliyev əlavə edib ki, əsas xarici ticarət tərəfdaşlarının valyutasının ucuzlaşması ixracı stimullaşdırmağa problem yaradır:** "Bütün bunlarla yanaşı, dekabrın 15-16-da keçiriləcək FED-in iclasında uçot dərəcəsinin qaldırılması ehtimalı var. Bu baş verərsə, dünya bazarlarında güclü ajiotaj yaranacaq və dollar bahalaşacaq. Onun təsiri Azərbaycana da çatacaq. Neftin hazırki qiymətləri manata dəstək verə bilmir. Reallıq göstərir ki, manatı indiki səviyyədə uzun müddət saxlamaq mümkün olmayacaq. Hökumət hazırda iki seçim qarşısında qalıb: kəskin, yoxsa yumşaq devalvasiya? Hansını seçəcəyini demək çox çətindir. Böyük ehtimalla, yumşaq devalvasiyaya üstünlük verəcək. Üzən məzənnə siyasətinə keçid mesajı da bu addıma xidmət edir. Əgər kəskin devalvasiya baş verərsə, manatın ucuzlaşması təxminən 20-30 faiz civarında olacaq".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 275 (6302) 10 dekabr 2015

# Fuad Qəhrəmanlının həbsinin pərdəarxası

## Baş Prokurorluq rəsmi açıqlama yaydı

**Respublika Baş Prokurorluğunun mətbuat xidməti dekabrın 9-da AXCP sədrinin müavini Fuad Qəhrəmanlının həbsi ilə bağlı məlumat yayıb. Musavat.com-a göndərilən məktubda F.Qəhrəmanlının həbs olunma səbəbləri barədə məlumat verilir:**

"2015-ci il noyabrın 26-da silahlı cinayətkar dəstə tərəfindən Nardaran qəsəbəsində dini ekstremist fəaliyyətin həyata keçirilməsi, ictimai qaydanın pozulması, terror aktları və ölümlə nəticələnən digər cinayətlər törədilməsi faktları ilə bağlı Baş Prokurorluqda istintaq edilən cinayət işi üzrə Abşeron rayon sakini, hüquqi qeydiyyatdan keçməyən AXCP-nin sədr müavini Fuad Qəhrəmanlı şahid qismində dindirilməsi üçün dekabrın 8-də telefon vasitəsi ilə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə dəvət edilib. Lakin rəsmi çağırış vərəqi tələb etdiyindən, idarənin əməkdaşları tərəfindən həmin tarixdə ona yaşadığı ünvanda rəsmi qaydada çağırış vərəqi təqdim olunmaqla idarəyə dəvət edilmiş və şahid qismində dindirilmişdir. Aparılmış istintaqla F.Qəhrəmanlının "facebook" sosial şəbəkəsinin özünə məxsus səhifəsində 2015-ci ilin sentyabr ayından başlayaraq yaydığı çoxsaylı informasiyalarda vətəndaşları hakimiyyət nümayəndələrinə qarşı itaətsizliyə çağırışlar etməsi, islam dininin müxtəlif təriqətləri arasında dini nifrət və düşmənçiliyin salınmasına yönələn hərəkətlər etməsinə dair kifayət qədər sübutlar toplanmışdır. Öz çağırışları ilə F.Qəhrəmanlının insanları Nardaran qəsəbəsində dini ekstremist fəaliyyətin həyata keçirilməsinə sövq etdiyinə, dini ayrı-seçkiliyin salınmasına cəhd etdiyinə dair əsaslı şübhələr mövcuddur.

F.Qəhrəmanlının Tale Bağırov və tərəfdaşları tərəfindən silahlı ekstremist dəstə yaratmaqla Nardaran qəsəbəsində din pərdəsi altında törədilən ağır və xüsusilə ağır cinayətlərə bəraət qazandırmağa çalışaraq insanları meydan mübarizəsinə hazırlaşmağa, qorxmadan meydanlara çıxaraq hakimiyyətin zorla ələ keçirilməsinə, davamlı və kütləvi şəkildə etiraz aksiyaları keçirərək Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə açıq çağırışlar etməsinə dair məlumatlar əldə edilmişdir.



F.Qəhrəmanlı Cinayət Məcəlləsinin 281.1 *(dövlət əleyhinə yönələn açıq çağırışlar)* və 283.2.1-ci *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması zor tətbiq etmə hədəsi ilə törədildikdə)* maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir".

**Baş Prokurorluqdan yayılan açıqlamada sonra deyilir ki, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə F.Qəhrəmanlının istintaqa dəvət edilməsi və həyata keçirilən digər prosessual hərəkətlər zamanı guya hüquqlarının pozulması ilə bağlı yayılan informasiyalar həqiqəti əks etdirmir:** "F.Qəhrəmanlı ilə bağlı həyata keçirilən bütün istintaq hərəkətləri özü tərəfindən dəvət edilmiş vəkilin iştirakı ilə aparılmış və bu zaman hər hansı qanun pozuntusu hallarına yol verilməmişdir".

Xatırladaq ki, Tale Bağırzadənin Milli Şura və AXCP ilə əlaqələri, Nardaran hadisələri ilə bağlı istintaqa sözügedən qurumun tanınmış təmsilçilərinin də cəlb ediləcəyi barədə hələ ötən həftə mediada xəbərlər yayılmışdı. Xəbərlərdə həmçinin deyilirdi ki, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun müxalifətdəki adamlarının da axtarışı gedir və yaxınlarda həmin adamların haqqında tədbirlər görüləcək.

**Fuad Qəhrəmanlı vəkili Fəxrəddin Mehdiyev** isə bildirib ki, Nəsimi Rayon Məhkəməsinin qərarından apelyasiya şikayəti hazırlanıb və verilib: "Fuad Qəhrəmanlı barəsində Cinayət Məcəlləsinin 281.1-ci *(Hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma)* və 283.2.1 *(milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması - zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə)* maddələri ilə ittiham irəli sürülüb və onun sosial şəbəkələrdə bu cür çağırışlar etdiyi iddia edilir. Fuad Qəhrəmanlı isə bu ittihamlarla razılaşmır və sosial şəbəkələrdə tənqidi fikirlər səsləndirdiyini deyir. Buna görə də o, qərardan apelyasiya şikayəti verib".

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət liderləri də həbs oluna bilər



**Azər RƏŞİDOĞLU**

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı da həbs edildi. Daha bir siyasi fəal çoxsaylı siyasi məhbuslar ordusu siyahısına daxil edildi. Artıq siyasi və ictimai fəalların həbsi ilə kimlərisə təəccübləndirmək mümkün deyil. Prosesin ardının da olacağı ehtimalı xeyli dərəcədə böyükdür. Həbslər əslində qarşıdan gələn iqtisadi böhrana hesablanmış addım kimi də təqdim oluna bilər.**

Siyasətdə rəqiblərinə qarşı ən müxtəlif üsullarla mübarizə aparmaq təcrübəsi həmişə mövcud olub. Lakin heç bir zaman siyasi rəqiblərə qarşı bu dərəcədə aşırı amansızlıqla mübarizə aparılmayıb. Belə metodların sonu da yoxdur və beynəlxalq ictimaiyyət tərəfindən mənfi qarşılanır.

Cəmiyyətdə bu dərəcədə gərginlik, qarşıdurmanın yaradılması bədbin proqnozlara əsas verir. Məsələ ondadır ki, cəmiyyəti daha çox sıxmaq və kütləvi qorxu mühiti yaratmaq cəhdləri hakimiyyətin daha böyük planlarından xəbər verir. Yaxın gələcəkdə daha genişmiqyaslı həbslərin ola biləcəyini də ehtimal edə bilərik. Bu baxımdan, ehtimal edə bilərik ki, Fuad Qəhrəmanlının həbs olunması ilə məsələ yekunlaşmayacaq. Kənardan baxış nəticəsində belə fikir irəli sürmək olar ki, hakimiyyət daha iri həbslərə hazırlaşır və təqiblər bu dəfə yalnız müxalifətçilərə ünvanlanmayacaq. "Qara siyahı"da iriçaplı məmurlar da ola bilər, bəzi müxalifət liderləri də.

Bir sözlə, yeni ssenari işə düşüb. Təqiblər baş verənlərin mənzərəsini yaratmağa imkan verir. O da istisna deyil ki, hakimiyyət çalışacaq ki, bəzi məmurların müxalifətlə əlaqələrini "sübut" edə bilsin.

Bir sözlə, Azərbaycan hakimiyyəti beynəlxalq öhdəliklərə və ölkə qanunlarına hörmətsizlik nümayişini davam etdirir.

Cəmiyyət iki dilemma qarşısındadır. Ya həbslərin yeni dalğasını gözləməli və ölkənin sürətlə demokratiyadan uzaqlaşmasına boyun əyməli, ya da bu prosesləri durdurmalıdır. Bəyanat vermək, müdafiə komitələri yaratmaq ümumi prosesin yalnız tərkib hissəsi kimi qəbul oluna bilər. Təqibləri durdurmaq üçün daha çevik addımların atılması zəruridir.

Hakimiyyət iqtisadi böhranla bağlı yaxınlarda baş verə biləcək narazılıqdan ehtiyat edir. Hansısa narazılıq edənin dərhal həbs ediləcəyini və təqiblərə məruz qalacağını nümayiş etdirir. Qanunvericiliyin son zamanlar xeyli sərtləşdirilməsi də yəqin ki, bu amilə xidmət edir.

Əgər, yaxın gələcəkdə ölkədə narazılıqlar daha da artarsa, hakimiyyət hətta siyasi liderləri həbs etmək addımına belə gedə bilər. Amma insanların qorxu altında saxlanması bumeranq effekti də verə bilər. Bu baxımdan hakimiyyət baş qaldıran narazılıqların qarşısını təqiblər, xof yolu ilə deyil, islahatlar yolu ilə alsa daha yaxşı olar.

İqtidar daha sərt idarəçiliyə keçir. Siyasi müstəvidə vintləri sıxılır və əsas hədəfdə də tənqidçi medianın, müxalifət partiyalarının, sosial şəbəkələrin və özlərini müstəqil aparmağa başlayan məmurların sıradan çıxarılması durur. Odur ki, dəqiq deyə bilərik: qarşıda bizi olduqca sərt dövr gözləyir. Vəziyyət daha kritik çalar alır. İqtisadi böhran daha da dərinləşməkdədir. İqtisadi böhranın nə ilə sonuclanacağı bəlli deyil. Hakimiyyət vəziyyətdən çıxış yolları axtarır. Hələ ki təzyiqlərlə ictimai rəyə nəzarət edə bilir. Lakin hakim komandanın daxilində olan narazılıq iqtidarı labirintə sürükləyir.

**Qərb isə baş verənlərə sadəcə, sakit reaksiya verir. Bu dəfə də "narahatıq", "çox narahatıq", "üzülürük" ifadəsindən o yana keçməyən bəyanatların səslənəcəyi ehtimalı az deyil. Bu isə onu deməyə əsas verir ki, Qərb siyasi dairələri ilə rəsmi Bakı arasında ictimaiyyətə məlum olmayan hansısa razılaşma mövcuddur. Rəsmi Bakı bu həbslərin müqabilində Qərb qarşısında hansı güzəştə gedəcək, onu indidən demək çox çətindir. Lakin Qərbdə də anlayırlar ki, hakimiyyət müxalifətsiz Azərbaycan modeli qurur. Bu isə demokratik dünya üçün yolverilməzdir. Odur ki, iqtidar siyasi məhbus problemini həll etmək zorundadır...**

# Rəşad Məmmədovun həbs müddəti uzadıldı

**Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi Rəşad Məmmədovun və onunla birlikdə həbs edilən - İsfəndiyar İsfəndiyarovla Arzu Məmmədovun barələrində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

APA-nın məlumatına görə, Səbail Rayon Məhkəməsinin qərarı ilə onların hər birinin həbs müddəti 3 ay artırılıb.

Qeyd edək ki, adıçəkilən şəxslər Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən bu ilin may ayında tutulub. Onlar Cinayət Məcəlləsinin 178-ci *(dələduzluq)* maddəsinə əsasən ittiham olunur.



Yeni MÜSAVAT
N 275 (6302) 10 dekabr 2015

# "Günəşli" fəlakəti Türkiyə-Azərbaycan yaxınlaşmasına görə baş verdi?

## Türkiyəli ekspertdən Xəzərdəki qəzaya dair "təxribat" işarəsi: "Davudoğlunun Bakıya səfəri əsnasında Xəzərdəki yataqda baş verən yanğını artıq təxribat kimi dəyərləndirənlər var"

**Türkiyənin Rusiya və Qafqaz üzrə nüfuzlu araşdırmaçılarından biri Həsən Oktayla son olayları, həmçinin Türkiyə-Azərbaycan əlaqələrinin taleyini müzakirə etdik.**



***- Həsən bəy, Türkiyə və Rusiya arasındakı təyyarə hadisəsindən sonrakı durumu necə qiymətləndirirsiniz? Hazırda tərəflərin sanki böhranı yumşaltmağa çalışdığı hiss olunur. Sizcə, böhran sakitləşəcəkmi, yoxsa hələ bir müddət bu gərginlik davam edəcək?***

- Böhran rus təyyarəsinin vurulması ilə zirvə nöqtəsinə çatdı, amma ondan öncə Türkiyə-Rusiya münasibətləri Ukrayna hadisələri ilə bağlı böhranlı duruma düşmüşdü. Türkiyə sahib olduğu geostrateji mövqeyinə görə demək olar ki, dünyanın qlobal güclərinin maraqlarının toqquşma mərkəzində yerləşir. Hər hansı tərəfə meyllənərsə, bu zaman birmənalı olaraq situasiya dəyişəcək. Türkiyə NATO ölkəsidir, amma eyni zamanda müstəqil siyasət yürüdəcək bir mövqeyi var. NATO və Varşava Müqaviləsi arasında rəqabət davam edən zaman belə Türkiyə öz mövqeyini qorumaya çalışıb, eyni zamanda, müstəqil siyasətini davam etdirmənin yollarını axtarıb. Qismən də buna nail olmaqla yanaşı, məsələn, orta və ağır sənayeyə qoyulan sərmayələrində Rusiyanın dəstəyini əldə edib. Karabük dəmir-polad, Konya Ereğli dəmir-polad, İskenderun dəmir-polad, və Seydişehit alüminium müəssisələri kimi böyük miqyaslı sərmayələri Rusiya edib. İndi isə 50 ildir arzulanan nüvə mərkəzi inşası artıq icra mərhələsinə daxil olub.

Qərb bloku zaman-zaman Türkiyənin Rusiya ilə bu əlaqələrindən narahat olub. Və fərqli şəkillərdə Türkiyəyə təzyiqlər olunub. Ukrayna böhranı baş verəndə isə məlum odu ki, Avropa və Rusiya arasında gərginlik tərəflərdən hansının Türkiyəni öz tərəfinə çəkəcəyi halda qazanacağı bir mərhələyə qədəm qoyub. Türkiyə isə ilk vaxtlarda bitərəf qalmaqla hardasa Rusiyanı dəstəkləmiş odu. Ancaq Rusiya lideri bu reallığı görmək istəmədi. Bəlkə də Türkiyədən daha böyük bir dəstək gözləyirdi. Lakin o da aydındır ki, mövcud dünya şərtləri Türkiyənin Rusiyanı ancaq bu qədər dəstəkləməsinə imkan verirdi. Bundan daha artıq dəstək Türkiyənin özünə zərər verə bilərdi. Və Türkiyənin bu mövqeyi nə Qərb, nə də Rusiya tərəfindən anlaşıqlı qarşılanmadı. Bu vəziyyətdə isə hər iki tərəfdən Türkiyəyə qarşı inciklik yarandı. Belə bir vəziyyətdə diqqətlər Suriyaya çevrildi. Rusiya bir tərəfdən Qərbin embarqolarının təsirini azaltmağa çalışdı, bir tərəfdən də İranın təsiri ilə Suriyaya daxil oldu. Suriya nə Rusiyanın, nə də Türkiyənin birinci məsələsi olmadığı halda, bu coğrafiyada qarşı-qarşıya gəldilər. Rusiya eyni zamanda NATO üzvü olan Türkiyənin hava sərhədlərini pozmaqla bölgədə NATO-nun nüfuzunu yoxladı. İlk dəfə hava sərhədləri pozulanda Türkiyə bu məsələni NATO-nun müzakirəsinə çıxardı. Lakin Türkiyə NATO-dan gözlədiyi yardımı almadı. Bundan sonra Rusiya Suriyada daha rahat hərəkət etməyə başladı. Türkiyə isə daha çox narahat idi, üstəlik, savaşın Türkiyə ərazilərinə sıçraması ehtimalı vardı. Təyyarənin vurulma hadisəsindən sonra Türkiyə və Rusiya qarşı-qarşıya gəldilər. Qərbin Ukraynada durdura bilmədiyi Rusiyanı Suriyada durdurmaq üçün qurduğu plan Rusiya və Türkiyəni qarşılaşdırma nöqtəsinə doğru irəlilədi. Bu mənada gərginlik hələ keçməyib, hər iki ölkənin liderləri bu gərginliyi bitirməyə çalışmır, eyni zamanda bir-birinə qarşı embarqolar tətbiq etməyə başladılar.

***- Türkiyə Rusiyanın embarqolarına uyğun cavab verəcəkmi? Yoxsa Ankara böhranın daha da böyüməsinə çalışacaq?***

- Ankara suverenliyini qorumaq adına Rusiya ilə belə bir qarşıdurmaya getdi. Nəticədə Rusiya ciddi bir təpki ilə qarşılaşdı, necə deyərlər şok oldu. İndi isə bu şokdan çıxmaq üçün çalışmaq əvəzinə, böhranı daha da böyüdərək daxili siyasətdə alətə çeviriblər. Bu, Rusiya və Türkiyə üçün də belədir. Qərbin tətbiq etdiyi embarqolar və bir də Türkiyəyə qarşı sanksiyalarla Rusiya hardasa ölkəni aclığa məhkum edir. Ukrayna böhranını idarə edə bilməyən və bu prosesdə Türkiyənin üzərinə aldığı rolu anlamayan Rusiya hakimiyyəti öz xalqına zərbə vurur. Ankara rus xalqına zərər vuracaq heç bir addım atmayacaq. Düşünürəm ki, bu həssas durumu və böyüməkdə olan böhranı diplomatlar bir araya gəlib həll edəcəklər.

### Həsən Oktay: "Rusiya ilə böhran bir an öncə həll olunmalıdır"

***- Sizcə təyyarə olayından sonra Türkiyə-Rusiya münasibətlərini normallaşdırmaq mümkün olacaqmı?***

- Dərhal normallaşmalıdır, başqa yolu yoxdur. Suriyada Rusiya İran adına, Türkiyə isə Amerika adına hansı savaşı aparacaqlar? Suriya nə Türkiyənin, nə də Rusiyanın başlatdığı proses deyil. Obama 2016-cı ilə qədər bölgədə böyük bir savaş istəmir, buna görə də Amerika əvəzindən gərginliyi aparacaq dövlətə ehtiyac var. Bu ölkə Türkiyə olmamalıdır. Bundan başqa, nəzərdən qaçan başqa bir nöqtə isə ABŞ-İran anlaşmasının nələri əhatə etməsidir. Bu, məlum olmadığı bir halda Suriyada Türkiyə-Rusiya gərginliyi meydana çıxdı. "Kafkassam" olaraq bizim narahatlığımız var ki, İran-ABŞ anlaşması Suriyada Türkiyə və Rusiyanı qarşı-qarşıya gətirərək iki önəmli gücün neytrallaşdırılmasını planlayır.

Yeni Rusiya-Türkiyə qarşıdurması hər iki ölkəni bölgədə zəiflədə bilər. Və bundan ən çox Amerika və İran məmnun qalar. Ona görə də təyyarənin vurulması hadisəsinin arxasındakı səbəbləri yaxşı analiz etmək lazımdır. NATO ölkəsi olan Türkiyənin sərhədləri dəfələrlə pozulanda səsini çıxarmayanlar, Türkiyənin öz hava sərhədlərini qorumaq üçün hərəkətə keçəcəyini bildikləri üçün Türkiyə-Rusiya qarşıdurmasını gerçəkləşdirmək istəyə bilərlər. Hələ də Türkiyə təyyarə vurulması hadisəsinin detallarını ortaya qoymayıb. Əmri NATO-mu verdi, Türkiyə Baş Qərargahımı verdi, komanda silsiləsində sızma varmı? Bu məsələlər qəti şəkildə açıqlanmalıdır. Putin və Ərdoğan bir-birlərinin ünvanlarına kəskin sözlər deməyi bir kənara qoyub təcili surətdə texniki və diplomatik heyətlə işləməlidirlər. Təyyarə olayını həll etməyə çalışmalıdırlar. Yoxsa Türkiyə ilə Rusiyanı savaşdırmaq, ən azından, aralarındakı bu böhrandan istifadə etmək istəyənlərin say hər geçən gün artacaqdır. Yoxsa Türkiyə və Rusiyanı qarşılaşdırmaq istəyənlərin sayı gün-gündən artacaq.

***- Bu böhranın Qafqaza hansı təsiri olacaq? Əhməd Davudoğlu Bakıda isti mesajlar verdi. Azərbaycan prezidenti isə Türkiyənin yanında olduğunu bəyan etdi. Bu durum Rusiyanın Azərbaycana təzyiqlərinə səbəb ola bilərmi?***

- Bu böhrandan istifadə etmək istəyənlər ortaya çıxacaqlar. Qafqazda, Balkanlarda və digər keçmiş sovet respublikalarında Türkiyə-Rusiya qarşıdurmasını qızışdıraraq, iki ölkəyə zərbə vurmağa çalışacaqlar. Xüsusən də Rusiya mediasında güclü olan lobbi qüvvələri Rusiyanı Qafqaza yönəltməyə çalışacaq. Erməni lobbisi və yəhudi lobbisi rus böhranından istifadə etməyə çalışacaq. Davudoğlunun Bakıya səfəri əsnasında Xəzərdəki yataqda baş verən yanğını artıq təxribat kimi dəyərləndirənlər var.

Ukrayna böhranı zamanı Qərb Rusiyaya qarşı bir sıra əməliyyatlar, o cümlədən türk dünyası kartını tətbiq etməyə çalışdı. Amma onda Türkiyə buna imkan verməmişdi. İndi isə Rusiya bu kartın yenidən özünə qarşı istifadəsindən narahatdır. Türkiyə türk dünyasından yalnız vasitəçilik istəməlidir. Bundan başqa nə Rusiyada yaşayan türklər, nə də türk dünyası dövlətləri ucuz bir şəkildə xərclənməməlidir. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan Rusiya-Türkiyə böhranından yalnız vasitəçi olmalıdır. Türkiyə tərəfi bu böhranın dərinləşməsini istəmir, çox tez bir zamanda regional sülh üçün Putin və Ərdoğanın görüşməsi lazımdır. Bu məsələdə türk dünyası yalnız vasitəçi olmalıdır, ruslar isə türklərə qarşı nifrət çıxışlarından imtina etməlidirlər.

***- Yeri gəlmişkən, bir neçə gün əvvəl mediada Qarabağın azad edilməsi üçün hərbi əməliyyatların başlanacağı və Türkiyənin dəstək verəcəyi ilə bağlı xəbərlər yayıldı. Bu xəbərlər təbliğat vasitəsidir?***

- Qarabağ münaqişəsinin gündəmdə olması anlaşılandır. Əslində Azərbaycan bu mərhələni qiymətləndirib savaş olmadan diplomatiyanı hərəkətə gətirərək Qarabağda sülh əldə edə bilər. Ermənistanda konstitusiya referendumu və ardınca gələcək gərginliklər savaşı deyil, diplomatiyanı ön plana çıxarır. Türkiyənin Qarabağda savaşa başlayacağı fikrini rus mediasında erməni və yəhudi lobbisi ortaya atıb. Rusiyanın düşdüyü bu durumdan istifadə etmək istəyən bu iki qrup Putini daha da hiddətləndirməyə çalışırlar. Bu, daha çox təxribat işidir.

***- Əhməd Davudoğlu Bakıda Türkiyənin yeni Avrasiya, xüsusən də türk coğrafiyasına açılım planına işarə etdi. Türkiyənin yeni hökumətinin həqiqətən də belə bir proqramı varmı?***

- Davudoğlu Rusiya ilə yaranmış böhrana diqqət ayırmalı və bu problemi tezliklə yoluna qoyub Suriya münaqişəsinin həllini, o cümlədən türkmənlərə hansı dividentləri qazandıra biləcəyini düşünməlidir. Türkiyə türkmənlərin Suriyanın gələcəyində iştirakı üçün əlindən gələni etməlidir. Türk dünyası ilə bağlı fəaliyyətlər Rusiya böhranı həll olunmasa bir nəticə verməz. Türkiyə 200 illik keçmişi analiz etmədən, xüsusən də İkinci Dünya Savaşı itkilərini bilmədən siyasət yürütməyə başlayarsa, qorxuram ki, yeni uğursuzluqlarla qarşılaşa bilər. Türk dünyasını Qərb və Rusiya arasındakı rəqabətə qurban verməmək lazımdır. Bu səbəbdən də Davudoğlu ilk növbədə Suriya məsələsində indiyə qədər tətbiq olunan yanlış siyasətdən imtina edərək, yeni Suriya siyasəti formalaşdırmalıdır. Türk dünyası münasibətləri etimad üzərində inşa edilməlidir. Rusiya böhranı həllini tapmadan türk dünyasında həyata keçiriləcək hər bir iş və tətbiq mənfi nəticələr verə bilər.

***- Yəni belə çıxır ki, yeni dönəmdə Türkiyənin türk dünyasında yeni siyasi xətt yürütməsi mümkün olmayacaq?***

- Mən də onu demək istəyirəm ki, mümkün olduğu qədər bu günlərdə türk dünyasından bir şey umulmamalıdır. Yalnız ən məntiqli olan vasitəçilikdir. Rusiya böhranını sakitləşdirmədən atılacaq hər bir addım şübhə ilə qarşılanacaq. 2000 illik türk dünyası tarixini yaxşı araşdırmaq lazımdır. Ağılı insanlar dövriyyəyə girib türk dünyası üçün yeni bir hərəkət tərzi formalaşdırmalıdırlar. Eyni zamanda, İkinci Dünya Savaşından dərs çıxarılmalıdır. Türkiyə yeni bir Boraltan körpüsü faciəsini yaşamamalıdır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 275 (6303) 10 dekabr 2015

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində vəziyyət kifayət qədər gərginləşib. Son günlər daha da aqressivləşən düşmən hətta Azərbaycanın dinc əhalisini də hədəf seçir. Dekabrın 9-da qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri yaşayış məntəqələrimizi minaatanlardan və iriçaplı silahlardan atəşə tutub.**



# Ermənilər təşvişdə; Azərbaycan Ordusu düşmənə tankla zərbə endirdi

## Azərbaycan Müdafiə Nazirliyindən düşmənə çağırış: "İşğal olunmuş əraziləri tərk edin!"

Azərbaycan Müdafiə Nazirliyinin təmas xəttində vəziyyətə dair 9 dekabr tarixli rəsmi məlumatında isə deyilir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub. Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Qızılhacılı kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Şıxlar, Qaraqaşlı, Mərzili, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub. Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 95 dəfə atəş zərbəsi endirib.

Azərbaycanın Müdafiə Nazirliyi xəbərdar edir ki, dinc əhalimizin yaşadığı kəndləri atəşə tutan işğal olunmuş ərazilərdəki təmas xəttinə yaxın yaşayış məntəqələrində yerləşən düşmənin döyüş mövqelərini və hərbi obyektlərini məhv etmək məqsədilə ordumuz cavab tədbirləri görəcək və buna görə məsuliyyət Ermənistanın cinayətkar rejiminin üzərinə düşəcək.

Dekabrın 9-da saat 9.00 radələrində Tərtər rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus növbəti DJI Inspire 1 *(Quadcopter)* tipli pilotsuz uçan aparat *(PUA)* bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilib.

Azərbaycan Ordusunun sarsıdıcı zərbələri düşməni təşvişə salıb və hay-küy salmağa başlayıblar, hətta həyasızcasına ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikə şikayət də ünvanlayıblar. Dağlıq Qarabağdakı qondarma rejimin "müdafiə naziriliyi" Azərbaycan ordusunun təmas xəttinin cənub istiqamətində erməni qüvvələrinin mövqeyinə "ilk dəfə tankdan zərbə endirdiyini" iddia edib. İddialara görə, Azərbaycan ordusu erməni ordusunun mövqelərinə tankdan 5 zərbə endirib. Düşmən tərəf iddia edir ki, Azərbaycan 180 dəfə "atəşkəsi pozub" və erməni mövqelərinə avtomad, qumbaraatan və tanklardan üst-üstə 1500 dəfə atəş açılıb. Erməni tərəfinin digər iddiasına görə, dekabrın 8-də saat 21.10-da Azərbaycan tərəfinin iriçaplı snayperdən açdığı atəş nəticəsində 1991-ci il təvəllüdlü erməni hərbi qulluqçusu Qarik Avanesyan öldürülüb. Qeyd edək ki, son günlər düşmənin təxribatçı hücumları nəticəsində Azərbaycan ordusunun bir zabit, bir gizir, bir əsgəri şəhid olmuşdu. Ordu rəhbərliyi bəyan etmişdi ki, düşmən bu xain hücumlarına görə cavabını artıqlaması ilə alacaq. Elə bundan sonra işğalçı ordunun bir polkovniki əsgərlərimiz tərəfindən məhv edildi. Hazırda erməni mətbuatı cari ilin 11 ayında Ermənistanın 100-ədək itki verməsi barədə Azərbaycan tərəfinin açıqlamasını müzakirə edir. Qeyd edək ki, erməni hakimiyyəti itkilərin 63 olduğu xəbərini yaymışdı və bu gün erməni ictimaiyyəti Sərkisyan rejimindən hesab sorur.

**Azərbaycan Müdafiə Nazirliyinin mətbuat katibi Vaqif Dərgahlı** isə "Yeni Müsavat"a açıqlamasında düşmənin iddialarını təkzib etdi: "Tankdan istifadəsi ilə bağlı hər hansı konkret bir söz deyə bilmərəm. Sadəcə bizimkilər silah-sursatı vəziyyətə uyğun olarq tətbi edir. Əvvəllər deyirdilər snayperləri çıxardın, indi nəyi çıxardaq?" **Nazirlik rəsmisi işğalçıya müraciətlə bunları bildirdi:** "Problemi həll etməyin bir yolu var, işğal olunmuş əraziləri tərk edin! Gedib Kasprşikə şikayət edirsiniz. Bəs, bir müddət əvvəl özünüz Kaspşiki atəşə tutmuşdunuz, monitorinq vaxtı, onda niyə şikayət etmirdiniz?" V.Dərgahlı vəziyyətin gərgin olduğunu, ancaq ordumuzun istənilən situasiyaya hazır olduğunu bildirdi.

Müdafiə Nazirliyindən BAKU.WS-ə verilən məlumata görə, dekabrın 9-da qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri yaşayış məntəqələrimizi minaatanlardan və iriçaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyi xəbərdar edir ki, dinc əhalimizin yaşadığı kəndləri atəşə tutan işğal olunmuş ərazilərdəki təmas xəttinə yaxın yaşayış məntəqələrində yerləşən düşmənin döyüş mövqelərini və hərbi obyektlərini məhv etmək məqsədilə ordumuz cavab tədbirləri görəcək və buna görə məsuliyyət Ermənistanın cinayətkar rejiminin üzərinə düşəcək.



Arzu Nağıyev

### Hərbi ekspert: "Qarabağda döyüşlər başlasa, bu, təkcə Azərbaycan-Emənistan müharibəsi olmayacaq"

**"Rusiya-Türkiyə münaqişəsi Cənubi Qafqazda vəziyyəti kəskinləşdirdi. Doğrudur, bu, Qarabağda müharibənin başlaması planı deyil. Lakin müharibə qorxusu sürətlə yayılır".** Publika.az xəbər verir ki, bu barədə Rusiyanın "Nezavisimaya qazeta" nəşri yazıb. Nəşr qeyd edir ki, əsas qorxular Ermənistandan başlayıb: "Xüsusilə o haqda ki, Moskva Ankara ilə birgə layihələri bərpa etmək və reallaşdırmaq istəyir. Türkiyə də bunun qarşılığında Qarabağ münaqişəsində Azərbaycanın xeyrinə qərarın verilməsini tələb edə bilər". Məqalədə qeyd olunur ki, Bakının durumu daha incədir. "Azərbaycan iki regional liderin arasında vasitəçi olmaq istəyir, çünki münaqişənin genişlənməsi onun da maraqlarına ziddir. Türkiyə ilə Azərbaycan qardaşdır və bu qardaşlığı əməli fəaliyyət müşayiət edir. Bununla yanaşı, Azərbaycanın Rusiya ilə də sıx siyasi və iqtisadi tərəfdaşlığı var", - deyə nəşr qeyd edib.

**"Nezavisimaya qazeta" yazır ki, türk-rus gərginliyi Gürcüstanın da marağına ziddir:** "Rəsmi Tiflis Ankara ilə isti münasibətlərə sahibdir, eyni zamanda, Moskva ilə də əlaqələrin yoluna qoyulmasını istəyir. Belə görünür ki, Rusiya-Türkiyə münaqişəsi artıq Qafqaza çatır. Bölgə ölkələri anlayırlar ki, hadisələr onların iştirakı olmadan inkişaf edəcək. Halbuki bu, onların maraqlarına toxuna bilər".

Son günlər Ermənistanın daha çox aqressivləşməsi Rusiyanın bu ölkədəki silah-sursat və canlı qüvvəsini artırması ilə izah edilir.

**Politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a dedi ki, Ermənistan ərazisində, daha doğrusu Gümrüdə Rusiyanın 102 saylı bazası və İrəbuni hava limanı yaxınlığında hərbi hava qüvvələri var: "Bunun səbəbini guya NATO və Rusiyanın sərhəddinin məhz Ermənistandan keçməsi ilə izah etsələr də, Türkiyəyə və ümumiyyətlə regiona hərbi nəzarət etmək kimi qəbul etmək lazımdır. Təbii ki, bu kontingent eyni zamanda mütəmadi olaraq Dağlıq Qarabağ münaqişəsinə də müdaxilə edir. Hətta ABŞ və İran arasında embarqo və sanksiyaların götürülməsi ilə bağlı sövdələşmələr ortaya çıxanda dərhal Rusiya nəzarətsiz və ya "boz zona "deyilən İran-Azərbaycan sərhəddinə də qoşun çıxarmaq fikrinə düşdü. Bundan başqa ərazimizdə olan kontingentini də leqlaşdırmağa çalışdı. Dəfələrlə Dağlıq Qarabağ ərazisindən kənarda, Ermənistanla həmsərhəd rayonlarda, o cümlədən Gədəbəy, Tovuz, Ağstafa və Qazax istiqamətində ermənilər bilərəkdən dədlərlə atəşkəsi pozmağa başladılar.Burada iki məqsəd var idi - birincisi Gürcüstana və oradan da Avropa isitqamətində gedən beynəlxalq kommunukasiyalara ziyan vurmaqla Qərbi münaqişəyə qatmaq,ikincisi isə Rusiya hərbi kontingentini bu işə sövq etmək idi. Hazırda isə Türkiyə-Rusiya qarşıdurmasını bəhanə gətirərək, hərbi texnika və canlı qüvvənin sayını artıran Rusiya təbii ki,regionda ,o cümlədən Dağlıq Qarabağda gərginliyi artırır, bu isə ermənilərin birbaşa xeyrinə olan məsələdir. Həm status-kvo uzanır, həm də KTMT-nin üzvü olmaq bəhanəsi ilə hərbi balansı öz xeyrinə pozur".

**Bəs, Ermənistan daxilindəki gərgin vəziyyət Azərbaycana, Qarabağa nə vəd edir? A.Nağıyev:** "Ermənistanda məlum referendumdan sonrakı vəziyyət Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir müsbət dəyişiklik vəd etmir. Çünki bu referendumun əsas məqsədi prezidet idarəçilik sistemindən parlament idarəçiliyinə keçməkdir. Bu isə Sarkisyanın indiyədək etdiyi cinayətləri ört basdır etmək və cavabdehlikdən yayınmaq üçündür. Məlumdur ki,istər Sərkisyan,istərsə də onun komandası Dağlıq Qarabağ münaqişə si üzərindən cinayətkar səhra komandirləri olmaqla hakimiyyət gəliblər və bu hakimiyyəti də əldən verməyə hazırlaşmırlar... Sərkisyan rejiminə etirazlar hara qədər davam edə bilər və hakimiyyət dəyişikliyi Azərbaycan üçün faydalı perspektiv vəd edirmir. Sərkisyan özü-pzlüyündə hakimiyyətdən gedə bilməz,birincisi bunu Rusiya istəmir Şçünki vassaldırlar, strateji əməkdaşdırlar və Sərkisyan Rusiyanı hər isitiqamətdə razı salır. İkincisi onun yerinə müvfiq kadra yetişdirilməlidir ki,həm dünyadakı erməni lobbisini,həm də Rusiyanı razı salsın.Ola bilər ki,bu varintla Gürcüstanda olduğu kimi müəyyən siyasi gedişlərə əl atılsın,lakin bu gün üçün bu tezdir.Təbii ki, dəyişiklik baş versə Azərbaycanla münasibət artıq o gələn komandanın siyasi kursundan asılı olacaq." Belə vəziyyət prezidentlərin dekabr görüşünü sual altında qoymurmu? A.Nağıyev: "Dağlıq Qarabağı Ermənistanın ərazisi kimi təqdim edən Sərkisyanla hansı danışıqdan söhbət gedə bilər? Eyni zamanda Azərbaycan rəhbərliyi erməni təcavüzünü sərt bəyanatlarla tənqid edir ,güc nümayiş etdirilələyini söyləyir. Belə bir şəraitdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşlrinin baş tutacağı inandırıcı görünmür, hətta baş tutsa belə real nəticə əldə edilməyəcək".

**Hərbi ekspert Azad İsazadə** də cəbhədəki gərginliyin təhlükəli mərhələyə adladığı qənaətindədir: "Vəziyyət kifayət qədər kəskinləşib. Artıq ağır texnika da prosesə qoşulubsa, deməli, bu, sadə məsələ deyil. Amma çox gman ki, bu, müvəqəti haldır. Çünki indiki halda nə Azərbaycan, nə Ermənistan regiondakı mürəkkəb vəziyyətdə bundan artıq gərginilikdə maraqlı deyillər. Ona görə ki, Qarabağda döyüşlər başlasa, bu, təkcə Azərbaycan-Emənistan müharibəsi olmayacaq. Bölgədə Rusiya və Türkiyənin də maraqları və bu bu maraqlar toqquşa bilər. Vəziyyət o qədər gərginləşə bilər ki, hətta nəzarətdən də çıxa bilər". **A.İsazadə bildirdi ki, indiki halda atışmaların avtomat silahlar müstəvisinə qaytarılması da böyük hadisə olardı. Hərbi ekspert Kremlin Qarabağda müharibəni alovlandırmaqda maraqlı olduğunu düşünmür:** "Ancaq nəzərə almalıyıq ki, Rusiya hakimiyyəti də ayrı-ayrı qüvvələrdən ibarətdir, yekcins deyil. Rusiyada da rəhbərliyin ətrafında bir neçə qruplar mövcuddur. İstisna etmirəm ki, Qarabağda vəziyyəti gərginləşdirmək hansısa qüvvələrin və şəxslərin marağındadır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 275 (6303) 10 dekabr 2015

# “Dövlət yaşayış minimumunu ona görə müəyyən edib ki...”

## Yaşayış minimumu artırılır, ekspertlər bunun banklara borclu vətəndaşların xeyrinə olduğunu bildirir...



**Yeni ildən qüvvəyə minəcək “Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında” Qanuna əsasən 2016-cı il üçün yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 146 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün 117 manat məbləğində müəyyən edilib. Hazırda yaşayış minimumu ölkə üzrə 136 manatdır. Digər rəqəmlər də uyğun olaraq 140, 108 və 108 manat təşkil edir.**

Ekspertlər bildirirlər ki, banka borcunu ödəyə bilməyənlər üçün bu, çox yaxşı xəbərdir. Çünki məhkəmə və icraçılar borclu vətəndaşdan bankın xeyrinə yalnız yaşayış minimumundan yüksək gəliri tuta bilər. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, vətəndaşdan yaşayış minimumu məbləğinə toxunaraq pul tutulursa, şikayət etməlidir: “Məsələn, tutaq ki, vətəndaşın himayəsində həyat yoldaşı və iki uşağı var. Bu o deməkdir ki, onların yaşayış minimumu 526 manatdır. Hazırda qüvvədə olan qanuna görə 496 manatdır. Deməli, vətəndaşın əmək haqqı 526 məbləğdən çoxdursa, həmin artıq məbləğdən borc tutula bilər. Məsələn, 530 manatdırsa, ayda cəmi 4 manat tutula bilər. Azdırsa, heç nə tutula bilməz və kredit faktiki olaraq batır. Sizdən yaşayış minimumu məbləğinə toxunaraq pul tutulursa, şikayət edin, haqqınızı tələb edin. Dövlət yaşayış minimumunu ona görə müəyyən edib ki, vətəndaşını hər bir halda qorusun. Sizi və ailənizi acından öldürmək istəyən banka, məhkəməyə və icraçıya etiraz edin. Nəinki məhkəmədə iddia qaldırın, habelə qanunu qəbul etmiş Milli Məclisə və onu imzalamış prezidentə şikayət edin. Özlərinə hörmət etmirlərsə, heç olmasa prezidentə hörmət etsinlər”.

**Ekspert qeyd edib ki, bank, məhkəmə və icraçı vətəndaşın gəlirinin yalnız onun və himayəsində olan şəxslərin yaşayış minimumundan artıq qalan hissəsindən pul tuta bilər:** “İcra haqqında" Qanunun 65-ci maddəsinə əsasən, borclunun əmək haqqından və ona bərabər sayılan digər gəlirlərindən tutmaların məbləği 50 faizdən çox ola bilməz. Hüquqi cavab belədir. “Yaşayış minimumu haqqında” Qanunun 2-ci maddəsinə əsasən yaşayış minimumundan o cümlədən bu məqsəd üçün istifadə olunur: “fiziki şəxslərin gəlirlərinin vergiyə və icbari ödənişlərə cəlb edilməyən həddinin əsaslandırılmasında”. “İcbari ödəniş”in tərifi qanunvericilikdə yoxdur. Buna görə də vətəndaşdan məhkəmə və ya icraçının qərarı əsasında məcburi tutulan hər hansı məbləğ icbari ödənişdir. Əks mövqe varsa, hüquqi akta istinadən əsaslandırılmalıdır. İcbari ödənişi yalnız dövlət orqanı tuta bilər. Bizim halda bu, məhkəmə və ya icraçıdır. Sözügedən qanun da əsas verir ki, vətəndaş yaşayış minimumundan həmin icbari ödənişə cəlb edilməyən həddin əsaslandırılmasında istifadə etsin. Bu hüquqi arqumentə əsasən borclular haqqını tələb edə bilər. Əks tərəfin, yəni bankların hüquqi arqumenti yoxdur bu məsələdə. Yalnız subyektiv mülahizələri var, bu da heç bir hüquq normasına əsaslanmadan. Məntiqi cavab isə belədir. Yaşayış minimumunun mahiyyəti nədir? İnsanın aylıq zərurətini təmin edən məbləğ. İnsan həmin məbləğlə təmin edilmirsə, nə etməlidir, acından ölməlidir? Yaşayış minimumu statistik göstərici deyil. Qanunun tələbidir. Qanunun tələbinin isə hüquqi nəticəsi olmalıdır. Əks halda bu, qanun deyil, bəyanatdır. Milli Məclis qanun qəbul edib, prezident onu imzalayıb. İndi prezident və parlament deyirsə ki, vətəndaşa ayda ən azı bu qədər pul lazımdır, bankların xoşuna gəlsin deyə, biz əksinimi deyək? Dünya təcrübəsinə əsaslanan cavab isə budur ki, bir çox ölkədə vətəndaşların müflisliyi haqda qanun var. Yəni borcunu ödəyə bilməyən insan özünü müflis elan edir, borcunu qaytarmır və həyatını yaşamaqda davam edir. Məgər həmin insanın gəliri yoxdur? Əlbəttə, var, amma azdır. Buna görə humanist qanunverici onun bu gəlirinə dəymir ki, yaşa və ailəni dolandır. Bizdə təəssüf ki, belə qanun yoxdur. Amma xaricdə, özü də bankların xeyli inkişaf etdiyi və qorunan ölkələrdə belə təcrübənin olması o deməkdir ki, vətəndaşın ağır vəziyyəti ucbatından bankın kreditinin batmasında qeyri-adi heç nə yoxdur. Buna görə də bankların hay-həşirinə fikir verməyin. Reklamları kimi hüquqi əsasları da yalançıdır. Əlbəttə, mayda Konstitusiya Məhkəməsinə qanunsuz qərar qəbul etdirdikləri kimi yenə də “batarıq, çökərik, ölərik” kimi yarıhədə-yarıyalvarışa əl ata bilərlər. Buna görə də borclulara tövsiyəm odur ki, yaşayış minimumunuzu əlinizdən alan banklardan prezidentə və Milli Məclisə şikayət etsinlər. Çünki Qanunu onlar qəbul edib. İrəli!

***P.S.*** *Əslində “İcra haqqında” və “Yaşayış minimumu haqqında” Qanunlar bir-birinə zidd deyil. Qanunvericiliyi sistem şəklində tətbiq etmək lazımdı sadəcə. Məsələn, tutaq ki, mən dediyim misalda (əvvəlki statusuma baxın) ailə başçısının əmək haqqı 1500 manatdır. Banka da 50000 borcu var. Yaşayış minumumu 526 manatdır. Bu o deməkdirmi ki, həmin məbləğdən yuxarı olan məbləği (974 manat) icraçı tam tuta bilər? Xeyr! “İcra haqqında” Qanuna əsasən cəmi 750 manat tuta bilər. Amma əmək haqqı 530 manatdırsa, 235 manat tutula bilməz. Çünki “İcra haqqında” Qanun pozulmasa da, “Yaşayış minimumu haqqında” Qanun pozulacaq. Buna görə də cəmi 4 manat tutulacaq. Vəssalam!*

❑ **Röya**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



## Keçmiş icra başçısı məhkəmə zalında həbs edildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rafiq Alışovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Daha sonra zamində olan R.Alışovun barəsində həbs-qətimkan tədbiri seçilib. O, məhkəmə zalında həbs edilib. Məhkəmənin baxış iclası dekabrın 18-ə təyin edilib.**

Qeyd edək ki, R.Alışov Cinayət Məcəlləsinin 178.3.2 (etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə külli miqdarda zərər vurmaqla özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə) ilə ittiham olunur.

Onu da qeyd edək ki, o, 1994-2001-ci illərdə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyib (APA).

## Azərbaycanlı iş adamı su quyusunda öldü

**Marneuli rayonunda bədbəxt hadisə baş verib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu gün günorta saatlarında azərbaycanlı iş adamı Rafil Qədir oğlu Musayev həyətyanı sahəsindəki su quyusuna düşərək boğulub. Hadisə yerinə Rustavi Fövqəladə hallar departamentinin əməkdaşları gələrək onun meyitini 15 metr dərinlikdə olan su quyusundan çıxarıblar.**

R. Musayev Marneulidə tanınmış şəxslərdən biri olub. Hadisə ilə bağlı araşdırma aparılır.

**2015-ci il Azərbaycan xalqı üçün o qədər də rahat keçmədi. Xüsusən də Binəqədidə baş verən yanğın, bu günlərdə neft daşlarındakı qəza insan tələfatı ilə müşayiət olundu. Bundan başqa, siyasi proseslər, səs-küylü həbslər, nazir vəzifəsindən çıxarılanlar... da Azərbaycanın gündəmi üçün yetərincə ciddi hadisələr idi.**

## “Bu ildə ciddi siyasi dəyişikliklər gözlənirdi və... baş verdi”

# “İlin əvvəlindən bilinirdi ki, bir neçə nazir vəzifədən gedəcək”

## Keçi ili ilə bağlı Səbuhi Rəhimlinin hansı proqnozları özünü doğruldub?

Və ilin sonuna sayılı günlər qala bizi bu məsələdə astoroloji proqnozlar daha çox maraqlandırır. Maraqlıdır, 2015-ci ilin əvvəlində astroloqlar ilin bu cür keçəcəyi ilə bağlı proqnozlar səsləndirmişdimi? Keçi ili dünyaya və Azərbaycana nə vəd etmişdi? Qəzalar, insan tələfatı, nazirlərin, məmurların səs-küylü vəzifədən çıxarılma gözləntiləri var idimi?

“Yeni Müsavat” **astroloq Səbuhi Rəhimli**nin ilin əvvəlində verdiyi müsahibəni yada salıb, ordakı detalları bir daha vurğulayır.

S.Rəhimli ilin əvvəlində verdiyi müsahibəsində bildirmişdi ki, çoxları ili yanvarın 1-dən hesablayır, ancaq bu, yanlışdır. Yanvarın 1-i yalnız miladi təqvim dəyişir. Astronomik il isə Yuputerin hərəkətinə əsaslandığı üçün, Sutökən bürcü dövründə *(20 yanvar-19 fevral)* dəyişir: “Bu dəfə isə Keçi ili fevralın 19-na təsadüf edəcək. O vaxta qədər At ilinin himayəsində olacağıq.

Keçi ilində mütləq yeni siyasilər meydana gəlir. At illəri daha çox siyasi olaylarla zəngin keçir. Keçi ili isə bir az fərqlidir. At ilində başlanmış siyasi məsələlər Keçi ilində tədricən həll olunur. Keçi həm də incəsənət, xüsusən də teatral simvol kimi xarakterizə olunur, həmçinin lider kimi də rəmziləşdirilir. Keçi ilində mütləq yeni siyasi xadimlər meydana çıxır".

**İlin aparıcı planeti Yupiter, uğurlu ayları mart, dekabr; uğursuz ayları iyun, sentyabr, düşərli günü: bazar ertəsi, cümə axşamı, ağır günü: çərşənbə, şənbə göstərilirdi. Aparıcı zodiak illəri Keçi, Pişik, Qaban, rəngi göy, yaşıl, bənövşəyi kimi xarakterizə olunmuşdu. S.Rəhimli həmçinin bildirmişdi ki, keçi ilində yalan vədlər verilərsə, unutqanlıqlar olarsa, tərsliklər ola bilər:** “Keçi ilində bahalaşma təbii olaraq gedir. Böhranlı vəziyyət özünü daha çox büruzə verir. Köhnə dövrdə olan münaqişələr Keçi ilində daha da dərinləşir. Bu il də bir çox dəyişikliklər gözlənilir. ”Azadlıq" radiosunun əməkdaşı Xədicə İsmayılova ən yaxşı halda mart ayına kimi həbsdə qalacaq. Müsavat Partiyasında daxili çəkişmələr səngiyəcək, Dağlıq Qarabağla bağlı yenə də üstünlük bizdə olacaq, amma hansısa ərazinin qaytarılması baş verməyəcək. Əli İnsanovun həbsdən azad olunması yaza qədər baş verə bilər. Əgər olmazsa həbsdə qalmağı uzanacaq".



Səbuhi Rəhimli

**S.Rəhimli eyni zamanda gözlənilən parlament seçkiləri ilə də bağlı maraqlı fikirlər söyləyib:** “Parlament seçkiləri bu vaxta qədər olan seçkilərindən kəskin surətdə fərqlənəcək. Hətta yeni bir hərəkatın yaranacağı gözlənilir. Daxildə üçüncü bir qüvvə meydana gələcək. Uzun illər millət vəkili olanların 40%-i bu dəfə seçilməyəcək. Nazir ranqlı 4 vəzifəli məmur öz postunu tərk edəcək. 15-ə yaxın icra başçısı dəyişdiriləcək. Hazırkı deputatlardan bir çoxu yüksək vəzifələrə təyin olunacaq”.

**Astroloqun proqnozları sırasında həmçinin “Ebola” virusu, İŞİD haqqında məqamlar da yer alıb. S.Rəhimli ötən il demişdi ki, “Ebola” virusunu daha çox siyasi təzyiq kimi dəyərləndirir:** “İnşallah, yaz aylarından bu virusun dayanacağı gözlənilir. İŞİD barədə isə vəziyyət gərgin olaraq qalacaq. Bu hərəkat 2015-ci ildə daha da geniş əraziləri əhatə edəcək. Əslində İŞİD də ABŞ-ın ssenarisidir. Amerika dünyanın ən təhlükəli terrorçularını məhz bu quruma cəlb edib”.

❑ **Sevinc TELMANQIZI**

# Apteklərdə dərmanlar bahalaşıb, “vahid qiymət” də yoxdur...




## Adil Qeybulla: “Dərmanlar əhalinin cibinə görə bahalı sayıla bilər”

**Apteklərdə bir sıra dərmanların qiyməti bahalaşıb. Bahalaşma daha çox mövsümlə əlaqədar soyuqdəymə və qrip əleyhinə dərmanlarda müşahidə edilir. Şəkər xəstələri üçün satılan diabet çaylarının da qiymətində bahalaşma qeydə alınıb.**

Məsələn, əvvəllər 1 manat 80 qəpiyə satılan diabet çayı indi 2 manata, uşaqlar üçün soyuqdəyməyə qarşı satılan dərman əvvəl 4 manat 80 qəpiyə idisə, indi 5 manata satılır. Bundan başqa “Panangin”in qiyməti 2 manat 50 qəpikdən 3 manata qalxıb. 3 manata satılan “Quttalaks” isə 4 manat olub. Bundan başqa, “Nitroqliserin” 80 qəpikdən 1 manat 30 qəpiyə qalxıb. Həmçinin, “Ekstrakt valerianı” əvvəllər 20 qəpik idisə, indi 30 qəpik olub. Ümumiyyətlə, dərmanların hamısında 10 qəpik 1 manat arası bahalaşma var.

Baş çəkdiyimiz apteklərdən qiymətlərin bahalaşmasının səbəbi ilə maraqlandıq. Aptek işçilərinin bir qismi səbəbi izah edə bilmədi. Bəziləri isə onlara neçəyə deyiblərsə, o qiymətə də satdıqlarını bildirdilər. Alıcılar isə təbii ki, narazı idilər. Şəkər xəstəsi olduğunu və daim aptekdən diabet çayı aldığını deyən Afaq Nəbiyeva bir gün əvvəl 1 manat 80 qəpiyə aldığı dərmanı indi 2 manata aldığını söylədi: “Gündə bir qiymət qoyurlar. Hansı dərmanları baha satmaq lazım olduğunu da çox gözəl bilirlər. Elə dərmanları bahalaşdırıblar ki, bilirlər ki, insanlar o dərmanlar olmasa, yaşaya bilməz”.

Söhbətə qatılan digər alıcı Nuray Əhmədova isə uşaqları üçün soyuq dəymə əleyhinə dərman aldığını bu dərmanın da qiymətində 50 qəpik bahalaşdığını deyirdi. Bir sıra alıcılar isə bunu soyuqların düşməsi ilə əlaqələndirirdilər.

**Alıcı Ənvər Səlimov deyir ki, xüsusən də uşaqlar üçün soyuqdəymə əleyhinə qiymətlərin bahalaşdırılması təsadüfi deyil:** “Havalar soyuyub. Bilirlər ki, belə havalarda uşaqlar tez-tez qrip olur. Valideyn də məcburdur uşaq üçün olan soyuqdəymə əleyhinə dərmanlardan alsın. Ona görə də bu tip dərmanları bahalaşdırıblar ki, onsuz da neçəyə olsa alacaqlar”.

**Digər alıcı isə deyir ki, qiymətlərin vahid olduğunu və ucuzlaşdığını eşidəndə çox sevinib. Ancaq onun bu sevinci uzun çəkməyib:** “Yaşlı insanam. Hər an dərmana ehtiyacım olur. Televiziyadan eşitdim ki, qiymətlər bütün apteklərdə eyni olacaq. Həm də dedilər ki, bir sıra dərmanların qiyməti ucuzlaşdırılacaq. Bu xəbərə çox sevinmişdim. Ancaq görürəm ki, heç nə dəyişilməyib. Yenə həmişəki kimi sözdə hər şeyin olacağını deyirlər, reallıqda və əməldə isə köhnə hamam köhnə tasdır”.

Qeyd edək ki, bahalaşma ilə yanaşı dərmanların qiymətində vahidlik prinsipi də pozulduğunu müşahidə etdik. Bir dərman bir aptekdə başqa qiymətə digərində isə tamamilə fərqli qiymətə satılırdı.







Maraqlıdır, qiymətlərin səbəbsiz yerə bahalaşmasına səbəb nədir?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** bildirdi ki, dərmanlar əhalinin cibinə görə baha hesab oluna bilər: “Qiymətləri Tarif Şurası müəyyənləşdirir. Xüsusən də soyuqdəymə əleyhinə dərmanlar, "Parasetamol" əsaslı dərmanlardır. Onlar müxtəlif adlar daşısa da parasetamol əsaslıdır. Adətən xarici ölkələrdə bu dərmanlarda aptek şəbəkəsində yox, marketdə satılır. Bu baxımdan da onların qiymətləri ilə bağlı məsələni Tarif Şurası müəyyən edir. Tarif şurasının qiymətlər haqqında bir söz deməsi çətindir. Çünki onlar qiymətləri hesablayarkən həm maya dəyərini, həm yol nəqliyyat, gömrük xərclərini, həm də sahibkar gəlirlərini nəzərə alırlar. Ancaq azad rəqabət olsaydı, bu dərmanların qiymətləri reallığa uyğun olardı. Amma bir şeyi qeyd etmək istəyirəm ki, dünyanın hər yerində dərmanlar bahadır. Sadəcə olaraq bizdə keyfiyyətli dərmanlar çox bahadır. Amma dünya miqyasında keyfiyyətli dərmanların qiyməti ümumiyyətlə bahadır".

**Xatırladaq ki, 5 iyun 2015-ci ildə Nazirlər Kabineti “Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında qərar qəbul edib. Qərara görə, Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq “Azərbaycan Respublikasının dərman vasitələrinin reyestri”nə daxil edilmiş dərman vasitələrinin qiymətləri Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir. Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin topdan və ya pərakəndə satışı Şura tərəfindən müəyyən edilən qiymətlərlə həyata keçirilir.**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
Son səhifə
N 275 (6303) 10 dekabr 2015

# Nazir arvadı polisin köməyinə qaçdı

Türkiyənin baş nazir Əhməd Davudoğlunun həyat yoldaşı Sara Davudoğlu özündən gedən mühafizəçiyə kömək edib. Hadisə baş nazir xanımı ilə qatıldığı BMT-nin qadınlara təzyiqlərlə bağlı toplantısı zamanı yaşanıb.

Baş nazir çıxış etdiyi zaman qadın mühafizəçi polislərdən birinin vəziyyəti pisləşib. O, huşunu itirərək yerə yıxılıb. Mühafizəçinin köməyinə ilk çatan isə Davudoğlunun ixtisasca həkim olan həyat yoldaşı olub. Sara Davudoğlu ilkin tibbi yardım göstərib. Daha sonra hadisə yerinə həkim gəlib və səhhəti pisləşən qadına kömək edib. Əhməd Davutoğlu da çıxışı başa çatan kimi qadının yanına gedərək onun səhhəti ilə maraqlanıb.



Qadın polisin təzyiqinin düşdüyü üçün huşunu itirdiyi bəlli olub. İki qız anası olan Sara Davudoğlu həyat yoldaşı nazir təyin edildikdən sonra bir çox sosial layihələrdə yer almağa başlayıb.



## Balqabağın faydası

Balqabaq çox zəngin mineral tərkibə malik bostan bitkisidir. Onun tərkibində C, E, PP, K, B qrupu vitaminləri, mineral və mikroelementlər (dəmir, mis, kalium, flüor, sink, kalsium), fruktoza, pektin maddələri var. Belə zəngin tərkib balqabağı insanın müxtəlif orqan və sistemləri üçün çox faydalı edir.

Balqabaq həzm sistemi üçün çox faydalıdır. Qara ciyər, öd üçün balqabaq xüsusilə faydalıdır - bu orqanları təmizləyir, fəaliyyətini yaxşılaşdırır. Balqabaq qara ciyər sirrozu və iltihabları zamanı müalicəvi vasitə kimi istifadə olunur. Balqabaq və şirəsi sinir və ürək-damar sisteminə müsbət təsir edir, qan damarları təmizləyir və möhkəmləndirir, nevroz və yuxusuzluğa qarşı faydalıdır. Balqabaq həmçinin, orqanizmi ödemlərdən azad edir, böyrəklərin funksiyasını yaxşılaşdırır. Pektin maddələri ilə zəngin balqabaq orqanizmi toksinlərdən və digər ziyanlı maddələrdən təmizləyir, artıq xolesterini orqanimdən çıxarır. Hamiləlik zamanı balqabaq toksikozla mübarizədə kömək edir. Sellülozla zəngin olan balqabaq qəbizlik zamanı yaxşı kömək edir, arıqlamaq məqsədi daşıyan pəhrizlərdə istifadə oluna bilər.

Balqabaq karotinlə zəngindir. Bu da onu görmə qabiliyyətində pozulmalar olan insanlar və xüsusilə də uşaqlar üçün çox faydalı edir. Balqabaq dəmirlə olduqca zəngindir. Bu səbəbdən anemiyadan (qanazlığı) əziyyət çəkən insanlar onu öz menyusuna mütləq daxil etməlidir. Balqabaq şirəsi öskürəklə mübarizə aparır, bronxları təmizləyir.

# "Duyğu aclığı" sindromu

**Qidaya qarşı yüksək aclıq hissi olan insanlar stolda, soyuducuda və ehtiyatda olan qidaları yeməyincə özlərini yaxşı hiss etmirlər. Ətrafınızda kimsə yemək yedikdə ac olmadığınız halda belə, nəsə yemək istəyirsinizsə, televizor qarşısında sıx-sıx yemək yeyir, gecələr yatarkən yerinizdən qalxıb özünüzü soyuducunun qarşısında tapırsınızsa, o zaman siz yeni bir psixoloji sindromla qarşı-qarşıyasınız.**

Psixoloqların fikrincə, əslində bu mədədəki aclıq hissindən yox, "duyğularınızın aclığ"ından dolayı baş verir. Bu sindromdan əsasən iş həyatından narazı olan, dostları ilə münasibətləri korlanan, sevgidə bəxti gətirməyən, maddi durumu yerində olmayan insanlar əziyyət çəkir. Sindromun əlaməti olaraq kimsə yemək yedikdə həmin insana qoşulub yemək arzusu, ən sevdiyiniz yemək yeyildikdə ondan vaz keçərkən özünü çox pis hiss eləmək xüsusiyyəti göstərilir. Bekarçılıqdan, yeni məşğuliyyət olsun deyə, yemək yemək ehtiyacı da bu qəbildəndir.

Belə psixoloji vəziyyətlərdə qandakı serotonin və dopamin maddələri insan orqanizmində əhval-ruhiyyəni idarə edir. Dopamin qıtlığı yaşayan insanlar həyat enerjisini itirmiş, kefsiz, daxilində sanki bir boşluq varmış kimi özlərini hiss edirlər.





## Meydançaya 30 min oyuncaq atdılar

**Amerikada bir xokkey matçının ortasında təxminən 20 min azarkeş meydançaya təxminən 30 min ayı oyuncağı atıb. Meydana oyuncaq atılması 21 ildir davam edən adətdir. Üstəlik, bu adət heç vaxt təsirini itirməyib. Lakin builki say - 30 min rekord hesab edilir.**

Hər il Yeni il tədbirlərində baş verən bu hadisə xokkey matçında ilk qolun qeyd edilməsi mənasını verir. Kameralara çəkilən matçda 19,289 nəfər izləyici iştirak edib. Onlar meydana 28,825 min oyuncaq atıblar. 21 il əvvəl - bu adət başladığı zaman yalnız bir neçə ayı oyuncağı meydana atılmışdı. Lakin hər il bu rekord təzələnir. İşin ən yaxşı tərəfi isə odur ki, oyuncaq ayılar daha sonra xeyriyyə qurumlarına bağışlanır.

## Qoroskop




**QOÇ** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı göz önünə gətirin.

**BUĞA** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu yönümdə maliyyə məsələləri istisna təşkil edəcək. Hər halda ovqatınıza mənfi təsir göstərən amil olmayacaq.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətinizlə bağlı xoşagəlməzliklər də mümkündür.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**QIZ** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**TƏRƏZİ** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyişi gözləməyə dəyməz. Yalan danışmayın.

**ƏQRƏB** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə çox görünməyin.

**OXATAN** - Gecə saat 03:24-dən mənfi enerjili Ay bürcünüzə daxil olduğu üçün ilk növbədə səhhətinizi qorumalı, səfərə çıxmamalısınız. Yaxşı olar ki, ağır fiziki işlərə ara verib, əsas gücünüzü diplomatik görüşlərə həsr edəsiniz.

**OĞLAQ** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**SUTÖKƏN** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız mümkündür.

**BALIQLAR** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 10 manatlıq "ağıllı əlcək"



**Türkiyədə ticarət mərkəzində "ağıllı əlcək" satış rekordu qırıb. Milli.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu əlcəklərlə sensor tipli telefonları əlcəyi çıxartmadan idarə etmək mümkün olacaq. Əlcəyin barmaq ucu hissəsində tikilmiş əlavə parça sayəsində sensor barmağı asanlıqla "tanıyacaq".**

Qeyd edək ki, əlcəyin qiyməti 8-10 manat arası dəyişir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300